

XALQ DÖVLƏT ÜÇÜN YOX, DÖVLƏT XALQ ÜÇÜN OLMALIDIR...

# BİNƏQƏDİ

Müasir müstəqil Azərbaycan Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir
SƏH. 5

№09 (146) | 27 may 2016

İCTİMAİ-SİYASİ QƏZET

Qiymәti: 40 qәpik

## Azərbaycan Prezidenti İlham Əliyev 2015-ci ildə "Dünyada ilin adamı" seçilib



Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi və enerji mənbələrinin şaxələndirilməsinə mühüm töhfə verir. Qlobal transmilli layihələrin həyata keçirilməsində böyük təcrübə toplamış Azərbaycanın ciddi səyləri və liderliyi sayəsində müxtəlif ölkələrin təmsil olunduğu böyük komanda formalaşdırılıb, "XXI əsrin layihəsi" olan "Cənub" qaz dəhlizinin, onun tərkib hissəsi kimi "Şahdəniz-2", TANAP və TAP layihələrinin reallaşdırılmasına başlanıb və hazırda bu istiqamətdə işlər sürətlə davam etdirilir.

Azərbaycan tarixdə ilk dəfə təşkil olunan birinci Avropa Oyunlarını ən yüksək səviyyədə keçirməklə, ona göstərilən etimadı tam doğruldub və Avropa ictimaiyyətinə əsl idman bayramı hədiyyə edib.

Azərbaycan qitələri birləşdirən nəhəng nəqliyyat-kommunikasiya layihələrinin həyata keçirilməsində əhəmiyyətli rol oynayır, "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin yaradılması üçün böyük səylər göstərir. Son illər hava, yol, dəniz və dəmir yolu infrastrukturunu ən müasir standartlara uyğun yenidən qurmaqla, Azərbaycan qarşıdan gələn dövrdə bütün regionun inkişafına xidmət göstərəcək beynəlxalq nəqliyyat-tranzit şəbəkəsinin mərkəzinə çevrilib.

Azərbaycan beynəlxalq humanitar tədbirlərə ev sahibliyi etməklə dünyada sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun inkişafına, multikultural dəyərlərin təşviqinə, sülh və təhlükəsizliyin təmin edilməsinə əməli dəstək göstərir. Artıq Bakı şəhəri dünyanın ən müxtəlif ölkələrini təmsil edən nüfuzlu ictimai-siyasi xadimlərin, tanınmış şəxsiyyətlərin iştirakı ilə bəşəriyyət üçün mühüm əhəmiyyət kəsb edən məsələlərin müzakirə olunduğu mərkəz statusu qazanıb.

Cəmi 20 ildən bir az artıq müstəqillik tarixinə malik Azərbaycanın qazandığı uğurlar hətta dünyanın nəhəng ölkələri üçün nümunə hesab oluna bilər. Etiraf edilməlidir ki, bütün bu nailiyyətlər bilavasitə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adı ilə bağlıdır.

Göstərilən amilləri nəzərə alaraq və Azərbaycan Prezidentinin fəaliyyətini dərindən təhlil edərək "The Business Year" şirkəti İlham Əliyevi 2015-ci ildə "Dünyada ilin adamı" seçib.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya Humanitar Sammitində iştirak edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Dünya Humanitar Sammitində iştirak etmək üçün mayın 22-də Türkiyə Respublikasına işgüzar səfərə gəliblər. İstanbulun Atatürk Beynəlxalq hava limanında Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Türkiyənin yüksək səviyyəli dövlət və hökumət nümayəndələri qarşılayıblar.

Mayın 23-də İstanbulda Dünya Humanitar Sammiti öz işinə başlayıb. Dünyanın humanitar fəlakət bölgələrində mövcud vəziyyəti və həmin ərazilərə yardımların çatdırılmasını əks etdirən təqdimatla başlayan sammitin açılış mərasimində çıxış edən BMT-nin baş katibi Pan Gİ Mun bu mötəbər tədbirin keçirilməsinə verdikləri dəstəyə görə bütün dünya liderlərinə təşəkkürünü bildirib. Dörd il əvvəl bu ideyanın yaranmasına səbəb kimi dünyada humanitar böhranın getdikcə dərinləşdiyini deyən baş katib qeyd edib ki, bu böhran hər il dərinləşir və insanların çətinlikləri daha da artır. Pan Gi Mun humanitar böhranların səbəbinə çevrilən siyasi sabitsizliyin qarşısının alınmasının və mülki şəxslərin daha çox qorunmasının zəruriliyini qeyd edib. Qaçqın probleminin qarşısının alınmasında yeni forma və ideyaların yaradılmasının vacibliyini vurğulayan BMT-nin baş katibi böhran içərisində olan milyonlarla insanın problemlərinin həllində bütün dövlətləri və cəmiyyətləri həmrəy olmağa çağırıb.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sammitin dünyada ehtiyac içində yaşayan milyonlarla insanın problemlərinin həlli baxımından mühüm imkan olduğunu bildirib. Müharibələrin, təbii fəlakətlərin, iqlim dəyişikliyinin bütün bəşəriyyətin təhlükəsizliyini və gələcəyini ciddi təhdid etdiyini deyən R.T.Ərdoğan Türkiyənin humanitar problemlərin həllində fəal rol oynadığını və təmsil etdiyi dövlətin bu gün dünyanın 140-dan çox ölkəsində humanitar yardım və sosial inkişaf sahəsində müxtəlif layihələr reallaşdırdığını diqqətə çatdırıb. Hazırda qlobal humanitar yardım sisteminin mövcud problemlərin həlli baxımından səmərəsiz olduğunu qeyd edən Türkiyə Prezidenti bildirib ki, bu sistemin yükünü cəmi bir neçə ölkə öz çiynində daşıyır.

Sonra dünyanın müxtəlif ölkələrində münaqişələrdən, təbii fəlakətlərdən əziyyət çəkən insanların üzləşdikləri çətinliklərdən bəhs edən kompozisiya təqdim olunub və video-çarx nümayiş etdirilib. Qısa fasilədən sonra sammit işini plenar iclasla davam etdirib. İclasın həmsədri, BMT-nin baş katibi Pan Gi Mun sammitin qarşısında duran əsas öhdəlikləri açıqlayıb və müzakirələrin bu öhdəliklərin həyata keçirilməsi, qarşıda duran problemlərin həlli istiqamətində aparılacağını diqqətə çatdırıb. İclasın digər həmsədri, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sülhyaratma, qlobal sülhə nail olma və digər məsələlərdə ölkəsinin bundan sonra da eyni əzmlə çalışacağını bildirib.

Almaniya Kansleri Angela Merkel silahlı münaqişələrdə mülki şəxslərin həlak olmasının qarşısının alınması üçün səylərin artırılmasının vacibliyini bildirib, ölkəsinin bundan sonra da humanitar yardımların dəstəklənməsi və müvafiq vəsaitin daha da artırılması istiqamətində fəaliyyətini gücləndirəcəyini vurğulayıb.

Azərbaycan Prezidenti İlham Əliyev Dünya Humanitar Sammitinin plenar iclasında çıxış edib. Sammitin nəticələrinin bütün dünyada humanitar böhrandan əziyyət çəkən insanların həyat səviyyəsinin yaxşılaşmasına öz töhfəsini verəcəyinə ümidvar olduğunu vurğulayan dövlətimizin başçısı bildirib ki, biz azərbaycanlılar qaçqınlığın və məcburi köçkünlüyün nə demək olduğunu çox yaxşı bilirik: "Artıq 20 ildən çoxdur ki, bir milyondan artıq azərbaycanlı Ermənistanın hərbi təcavüzü və işğalından əziyyət çəkir. Bu təcavüz nəticəsində bizim beynəlxalq səviyyədə tanınmış ərazilərimizin 20 faizi işğal altındadır. Bir milyondan artıq azərbaycanlı qaçqına və məcburi köçkünə çevrilib".

Bu ilin aprelində Ermənistan silahlı qüvvələrinin dinc Azərbaycan vətəndaşlarına qarşı yeni hücum həyata keçirdiyini diqqətə çatdıran dövlətimizin başçısı nəticədə əsgər və zabitlərimizin, o cümlədən 6 mülki şəxsin qətlə yetirildiyini, 30-dan artıq dinc insanın yaralandığını, kəndlərimizin atəşə tutulması nəticəsində 500-dən artıq evə ziyan dəydiyini, 100-dən çox evin tamamilə dağıdıldığını və yandırıldığını vurğulayıb.

Bütün region üçün başqa bir təhlükə mənbəyi hesab edilən istismar müddəti başa çatmış Metsamor Atom Elektrik Stansiyası barədə də danışan dövlətimizin başçısı bildirib ki, Ermənistanın radioaktiv tullantılardan qanunsuz istifadə etməsinə dair məlumatlar var: "Sabiq baş nazir, parlament üzvü və digər Ermənistan rəsmiləri bu ilin aprelində Ermənistanın "çirkli bomba" adlandırılan nüvə silahına malik olduğunu bəyan ediblər. Bu bəyanat müvafiq beynəlxalq təşkilatlar tərəfindən ciddi şəkildə araşdırılmalıdır. Ermənistanın nüvə təhdidi və şantajına son qoyulmalıdır. Azərbaycan səbəbkarı Ermənistan olan humanitar fəlakətin fəsadlarının öhdəsindən gəlmək üçün əlindən gələni edir".

Azərbaycan Prezidenti qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması üçün dövlətin apardığı humanitar siyasətin mühüm nəticələrindən də bəhs edib. Bildirib ki, bu məqsədlə 6 milyard dollardan artıq vəsait sərf olunub. Qaçqın və məcburi köçkünlər arasında yoxsulluq səviyyəsi 75 faizdən 12 faizə endirilib. Ümumilikdə, son 12 ildə ölkədə yoxsulluq səviyyəsi 50 faizdən 5 faizə enib. Azərbaycan oxşar problemlərdən əziyyət çəkən ölkələrə yardım edir və edəcək...

Sonra Ukrayna Prezidenti Petro Poroşenko, Makedoniya Respublikasının Prezidenti George İvanov, Gürcüstan Prezidenti Giorgi Marqvelaşvili çıxış edərək, dünyada humanitar problemlərin həlli istiqamətində bütün fəaliyyətləri dəstəklədiklərini vurğulayıblar.

TƏDBİR SƏH. 3



Şəhidlərimizin qırx mərasimi keçirilib

CƏMİYYƏT SƏH. 4



Azərbaycanda müxtəlif xalqların dəyərlərinə hörmətlə yanaşılır

QARABAĞ SƏH. 6



Binəqədidə "Qarabağ həftəsi"

# Ölkə başçısı BP-nin Direktorlar Şurası sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də BP-nin Direktorlar Şurasının sədri Karl-Henrik Svanberqin başçılıq etdiyi və BP Qrupun baş icraçı direktoru Bob Dadlinin də daxil olduğu Direktorlar Şurasının üzvlərindən ibarət nümayəndə heyətini qəbul edib.

BP-nin Direktorlar Şurasının Azərbaycanda toplanmasından məmnunluğunu ifadə edən dövlətimizin başçısı bunun rəmzi məna daşıdığını vurğuladı. Prezident İlham Əliyev 20 ildən artıq davam edən BP-Azərbaycan əməkdaşlığı nəticəsində çox əhəmiyyətli layihələrin uğurla həyata keçirildiyini dedi. Dövlətimizin başçısı ötən dövr ərzində BP-Azərbaycan əməkdaşlığının inkişaf dinamikasını məmnunluqla xatırlayaraq bu illəri ölkəmizin iqtisadi inkişaf dövrü kimi xarakterizə etdi. Enerji təhlükəsizliyi və şaxələndirmə baxımından "Cənub Qaz Dəhlizi" layihəsinin önəmini vurğulayan Prezident İlham Əliyev bu layihənin bir çox ölkələr arasında əməkdaşlığın genişləndirilməsi işinə də töhfə verəcəyini dedi. Azərbaycan ilə əməkdaşlığa sadiq qaldığına görə BP şirkətinə təşəkkürünü bildirən dövlətimizin başçısı şirkətin ölkəmizdə Azərbaycan Dövlət Neft Şirkəti kimi etibarlı tərəfdaşı olmasının önəmini də qeyd etdi. Azərbaycan Dövlət Neft Şirkəti ilə BP arasında əməkdaşlığın artıq 22 ildir ki, davam etdiyini vurğulayan dövlətimizin başçısı bu əməkdaşlığın gələcək illərdə də uğurla davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

BP-nin Direktorlar Şurasının sədri Karl-Henrik Svanberq ölkəmizə səfərindən ötən dövr ərzində böyük dəyişikliklərin şahidi olduğunu, paytaxtımızda gedən inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını dedi. Azərbaycanın "Eurovision", Avropa Oyunları və "Formula-1" kimi möhtəşəm beynəlxalq yarışlara ev sahibliyi etməsinin önəmini vurğulayan Karl-Henrik Svanberq bildirdi ki, ölkəmizdə əldə olunan bütün bu nailiyyətlərin əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə "Əsrin Müqaviləsi" kimi tarixə düşən kontraktın imzalanması ilə qoyuldu. Azərbaycan ilə tərəfdaşlıqdan məmnunluğunu ifadə edən BP-nin Direktorlar Şurasının sədri tərəfdaşlığımızın ötən dövr ərzində çox güclü olduğunu dedi və regionun inkişafı ilə bağlı layihələrdə iştirak etmələrindən qürur duyduqlarını vurğuladı. "Şahdəniz-2" və "Cənub Qaz Dəhlizi" layihələrinin əhəmiyyətinə toxunan qonaq bu layihələrin BP-Azərbaycan əməkdaşlığının uzunmüddətli olması işinə xidmət edəcəyini bildirdi.

# Mikrorayon sakinləri ilə səyyar görüş

Mayın 13-də 157 saylı tam orta məktəbin akt zalında Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun 9-cu mikrorayon sakinləri ilə növbəti səyyar görüşü keçirilib. Tədbirdə rayon rəhbəri ilə yanaşı, RİH başçısının müavinləri, Aparatın şöbə müdirləri, məsul işçiləri, hüquq-mühafizə orqanlarının, dövlət idarə, müəssisə və təşkilatlarının, xidmət sahələrinin rəhbərləri və mikrorayon sakinləri iştirak ediblər.



Görüşü giriş nitqi ilə açan rayon icra hakimiyyətinin başçısı Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkədə aparılan abadlıq və quruculuq işləri barədə iştirakçılara ətraflı məlumat verib, qeyd edib ki, həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində bütün sahələrdə yüksək nailiyyətlər əldə olunub. Bildirilib ki, Binəqədi rayonu da bu uğurlardan yan keçməyib. Məhz görülən işlərin nəticəsidir ki, son illər rayonda abadlıq-quruculuq və sosial-iqtisadi sahələrdə ciddi irəliləyişlər əldə olunub.

Sonra söz Binəqədi Rayon İcra Hakimiyyətinin Sakinlərin Müraciət Xidmətinin (SMX-1646) rəisi Anar Səfərova verilib. Tədbirin keçirildiyi ərazidə görülmüş işlər barədə məlumat verən xidmət rəisi bildirib ki, "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın və "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın ölkə ərazisində, xüsusilə də Bakı şəhəri və ətraf qəsəbələrdə icrası ilə əlaqədar aparılan abadlıq-quruculuq işləri Binəqədi rayonu ərazisində uğurlar icra edilib. Qeyd olunub ki, hazırda səyyar görüş keçirilən ərazidə 92 saylı MKİS-in ərazisi olmaqla, 2 orta məktəb, 2 poliklinika, 4 uşaq bağçası, 1 Yanğından Mühafizə İdarəsi, 14 kooperativ bina, 11 yeni hündürmərtəbəli yaşayış binası, 4 şadlıq evi, 1 polis bölməsi (7-ci polis bölməsi) və 1 poçt fəaliyyət göstərir: "92 saylı MKİS-in xidməti ərazisində 137 girişli 31 hündürmərtəbəli yaşayış evi mövcuddur. Həmin yaşayış evlərində 2817 mənzil var. Bu mənzillərdə 7595 sakin məskunlaşmış, ümumi yaşayış sahəsi 167610 kv.m, yaşayış sahəsi isə 118494 kv.m-dir. 2817 mənzildən 2573 mənzil özəl, 244 mənzil isə dövlət mülkiyyətindədir. Ölkə başçısının tapşırığı ilə icra hakimiyyəti tərəfindən ərazidə olan 137 liftdən 70-i yenisi ilə əvəz edilib, 10-u modernləşdirilib, 5-i isə əsaslı təmir olunub. A.Məmmədov küçəsi boyunca 55, 57, 99, 103, 105, 109, 115, 117, 119, 127, 129a, 133 saylı binaların həyətlərinə 21415 kv.m asfalt örtüyü çəkilib. Eyni zamanda, 57, 105, 127, 141, 143 saylı binaların dam örtüyü əsaslı təmir edilib. Binaların həyətlərində abadlıq-quruculuq işləri aparılıb, girişləri təmir olunub. 1 ədəd müasir tipli konteyner meydançası tikilib, 11 ədəd müxtəlif tipli idman qurğuları, 2 ədəd fəvvarə və 1 ədəd şəlalə kompleksi quraşdırılaraq sakinlərin istifadəsinə verilib. Ərazidə mövcud 21 konteyner meydançasında hər birinin tutumu 1000 litr olan yeni 130 ədəd konteyner yerləşdirilib. A.Məmmədov küçəsi 57 saylı binanın qarşısında yerləşən "Xeyir-şər" evi əsaslı təmir edilib və Cavadxan küçəsi 4 saylı ünvanda yeni "Xeyir-şər" evi tikilirək sakinlərin istifadəsinə verilib".

Ərazidəki mövcud problemlərdən də danışan A.Səfərov xatırladıb ki, 2016-cı ilin yanvar ayının 1-dən indiyədək SMX-ya daxil olmuş, icraat vərəqəsi açılmış müraciətlərin sayı 220 vahid olub ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 19 vahid azdır. Daxil olan müraciətlərin sahələr üzrə bölgüsünə gəldikdə isə onların 48-i su-kanalizasiya, 48-i qaz,18-i istilik, 73-ü lift, 8-i elektrik təchizatı ilə bağlı olub.

Tədbirdə çıxış edən mikrorayon sakinləri rayonda, o cümlədən yaşadıqları ərazidə gedən abadlıq-quruculuq işlərinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər və onları narahat edən bəzi nöqsan və çatışmazlıqların aradan qaldırılmasını rayon rəhbərliyindən xahiş ediblər.

Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı sakinlər tərəfindən qaldırılan məsələlərin həlli ilə əlaqədar aidiyyəti qurum rəhbərlərinə konkret tapşırıqlar verib.

# "Müstəqilliyin çətin yolu – Azərbaycan Xalq Cümhuriyyəti" mövzusunda məlumat saatı




Mayın 28-də Binəqədi Rayon İcra Hakimiyyətində "Müstəqilliyin çətin yolu– Azərbaycan Xalq Cümhuriyyəti " mövzusunda məlumat saatı keçirilib. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılov, AMEA-nın akademiki, Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun əməkdaşı, tarix elmləri doktoru, professor Solmaz Rüstəmova-Tohidi, Aparatın şöbə müdirləri, əməkdaşları, rayon icra nümayəndələri, bələdiyyələr və YAP Binəqədi rayon təşkilatının fəal üzvləri iştirak ediblər.

Pproqrama uyğun olaraq, RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Rauf Həsənov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 19-dan 26-dək keçirdiyi görüşlər, etdiyi səfərlər, imzaladığı sərəncam və fərmanlar barədə iştirakçılara ətraflı məlumat verib.

"Müstəqilliyin çətin yolu– Azərbaycan Xalq Cümhuriyyəti " mövzusunda çıxış edən tarixçi alim Cümhuriyyətin yaranma tarixindən və onun keçdiyi çətin yollardan danışıb. Ötən əsrin əvvəllərində Rusiyada baş vermiş hakimiyyət çevrilişindən sonra 1918-ci il fevralın 14-də Tiflisdə Zaqafqaziyanın ali hakimiyyət orqanı olan Zaqafqaziya Seymi yaradılıb: " Lakin istər daxili, istərsə də xarici siyasət sahəsində kəskin milli mənafe ziddiyyətlərinin olması Zaqafqaziya Seyminin konkret addımlar atmasına imkan vermədi. Nəticədə 1918-ci il mayın 25-də gürcü nümayəndələr Seymdən çıxdılar və ertəsi gün – mayın 26-da Gürcüstanın müstəqilliyini elan etdilər. Mayın 27-də Seymin Müsəlman Fraksiyasının, yəni Zaqafqaziya Müsəlman Şurasının (faktiki olaraq Zaqafqaziya Müsəlman Parlamentinin) üzvləri ayrıca iclaslarını keçirdilər və Azərbaycanın müstəqilliyini elan etmək qərarına gəldilər. Bu məqsədlə Zaqafqaziya Müsəlman Şurası özünü Azərbaycan Milli Şurası elan etdi. Keçirilən həmin iclasda Azərbaycan Milli Şurasının Rəyasət Heyəti və sədri seçildi. M.Ə.Rəsulzadə Milli Şuranın sədri oldu".

Azərbaycan Xalq Cümhuriyyəti son dərəcə mürəkkəb daxili və beynəlxalq şəraitdə yaradıldığını söyləyən tarixçi alim S.Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik qrupunun Bakıda və Azərbaycanın digər bölgələrində törətdiyi qırğınlardan danışıb. Çar generalları tərəfindən silahlandırılmış erməni quldur dəstələri Şərqi Anadolunun və Qərbi Azərbaycanın türk-müsəlman əhalisinə qarşı soyqırımlar törədiblər:

"Azərbaycanı müstəqil dövlət elan etmiş Cümhuriyyət xadimləri məhz belə bir tarixi şəraitdə çaşqın vəziyyətə düşmüş və çıxış yolu tapa bilməyən xalqın önünə keçdi".

Professor çıxışında həmçinin İrəvanın ermənilərə verilməsi ilə bağlı məqamlara da aydınlıq gətirib. Tədbir Dövlət himninin oxunması ilə başa çatıb.

# "ASAN Könüllüləri"nin 4-cü qrupu icra hakimiyyətində iş təcrübəsinə başlayıb

Mayın 25-də Binəqədi Rayon İcra Hakimiyyətində təcrübə keçməyə başlayan "ASAN Könüllüləri Gənclər Təşkilatı"nın Master-2 layihəsi çərçivəsində 4-cü qrupunun üzvləri ilə görüş keçirilib.

Görüşdən öncə könüllü gənclər YAP Binəqədi rayon təşkilatının inzibati binası, Heydər Əliyev adına istirahət parkı, Binəqədi RİH başçısı Aparatının inzibati binası ilə tanış olublar və onlara rayon barəsində ətraflı məlumat verilib.





Tanışlıqdan sonra "ASAN könüllüləri" ilə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun görüşü olub.

RİH başçısı Prezident İlham Əliyevin tapşırığı ilə yaradılmış ASAN xidmətin ölkədə korrupsiyaya qarşı mübarizə sahəsində əhəmiyyətindən və bütövlükdə məmur-vətəndaş münasibətlərində şəffaflığın təmin olunmasındakı rolundan danışıb, gənclərin bu işə könüllü qoşulmasını yüksək qiymətləndirib. Xaləddin İsgəndərov vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə yaradılmış "ASAN xidmət" mərkəzinin təkcə Azərbaycanda deyil, ölkə hüdudlarından kənarda, beynəlxalq miqyasda örnək kimi qəbul olunduğunu vurğulayıb. İcra başçısı çıxışında ölkəmizdə gəncliyin inkişafı, gənclərin dünya birliyinə inteqrasiyası və bu istiqamətdə əhəmiyyətli tədbirlərin keçirilməsinin dövlət siyasətinin prioritetlərindən olduğunu qeyd edib, "ASAN xidmət"in Binəqədi rayon İcra Hakimiyyətində əldə edəcəyi təcrübənin onlara gələcək işlərində müsbət töhfə verəcəyini bildirib.

Görüşdə çıxış edən "ASAN xidmət" mərkəzinin İnsan resursları və təlim şöbəsinin müdir müavini Əsli İbrahimli "ASAN Könüllüləri"nin Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatında keçəcəyi iş təcrübəsindən danışıb.

Görüşdən sonra "ASAN könüllüləri" ilə çay süfrəsi ətrafında səmimi söhbət davam edib.

Qeyd edək ki, may ayının 25-dən etibarən 11 nəfər gəncdən ibarət "ASAN könüllüləri" Binəqədi RİH başçısı Aparatında iki aylıq iş təcrübəsinə başlayıblar.

# MMMC-lərin işi ilə tanışlıq





Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova Binəqədi Rayon İcra Hakimiyyətinin məsul şəxsləri ilə birlikdə rayon ərazisində yerləşən "Binəqədi-1" və "Binəqədi-2" Mənzil Mülkiyyətçilərinin Müştərək Cəmiyyətlərində (MMMC) olublar.

MMMC-lərin yerləşdiyi binalarda görülən işlərlə tanış olan S.Həsənova ərazidə aparılan abadlıq-quruculuq işləri yüksək qiymətləndirib və MMMC-lərin mövcud problemləri ilə tanış olduqdan sonra bu istiqamətdə bir sıra təkliflərini irəli sürüb.

# Şagirdlər üçün sağlamlıq forumu

Binəqədi Rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi, Binəqədi Rayon Gənclər və İdman İdarəsi və Gənclər üçün Təhsil Mərkəzinin təşkilatçılığı ilə Binəqədi rayonunda fəaliyyət göstərən orta ümumtəhsil məktəblərinin bir qrup şagirdi üçün "Məktəblilərin sağlamlıq forumu" keçirilib.

Forumun rəsmi açılış mərasimində çıxış edən Gənclər üçün Təhsil Mərkəzinin icraçı direktoru Fəxrəddin Həsənzadə yetişməkdə olan gənc nəslin sağlamlığının qorunmasının zəruriliyini vurğulayaraq, təmsil etdiyi qurumun bu sahədə ardıcıl tədbirlər həyata keçirdiyini nəzərə çatdırıb. O, məktəblilərin sağlamlığının qorunması istiqamətində dövlətin gördüyü işlər barədə məlumat verərək, qeyri-hökumət təşkilatlarının da bu sahəyə diqqət göstərməsinin vacibliyini vurğulayıb.

Binəqədi Rayon Gənclər və İdman İdarəsinin rəisi Qüdsi Bayramov çıxışında yeniyetmə və gənclər arasında sağlam həyat tərzinin təbliği istiqamətində görülən işlər barədə məlumat verib, belə tədbirlərin mütəmadi olaraq davam etdirilməsinin vacibliyindən danışıb.

Binəqədi RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Seymur Hacıyev, İctimai Səhiyyə və İslahatlar Mərkəzinin nümayəndəsi Səbinə Babazadə, "Mənim təhsilim, mənim gələcəyim" kampaniyasının təsisçisi Rövşən Nəcəfov forumun əhəmiyyəti barədə fikirlərini bölüşüblər. Bildirilib ki, Gənclər üçün Təhsil Mərkəzi tərəfindən həyata keçirilən bu təşəbbüs məktəblilərin fiziki, mənəvi, intellektual inkişafı istiqamətində atılmış ciddi addımdır.



Tədbirin rəsmi hissəsindən sonra ekspertlərin məruzələri dinlənilib. Forum interaktiv yolla davam etdirilib. Məktəbliləri maraqlandıran suallar təcrübəli mütəxəssislər tərəfindən cavablandırılıb. Forum çərçivəsində Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən məktəblilərin tibbi müayinələri təşkil olunub, sağlamlığın qorunmasına dair maarifləndirici materiallar paylanılıb.

Məlumat üçün bildirək ki, belə forumların Bakı şəhərinin 7 rayonunda keçirilməsi nəzərdə tutulub. Məktəblilərin sağlamlığının qorunması, fiziki tərbiyəsinin inkişaf etdirilməsi, habelə onların zərərli vərdişlərdən uzaqlaşdırılması və sağlam həyat tərzi keçirmələrinə kömək etməyi nəzərdə tutan forum çərçivəsində məlumatlandırma sessiyaları ilə yanaşı, şagirdlər üçün pulsuz tibbi müayinələr, məsləhət saatları, habelə məktəblilər arasında sağlamlıqla bağlı yazı müsabiqələri, sərgilər və maarifləndirici kampaniyalar təşkil olunur.

BİNƏQƏDİ

Təsisçi:
**Binəqədi Rayon İcra Hakimiyyəti**

Baş redaktor:
**Rüfət Mərdanov**

Ünvan:
**AZ1130, Bakı, Binəqədi rayonu,
Nizami Nərimanov küçəsi, 75**

Tel.: **(012) 563 57 28**

E-mail: **bineqedi-qazet@mail.ru**

Qeydiyyat nömrəsi: **55** VÖEN: **1002874841**

"Binəqədi" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Tiraj: **2000** Qiyməti: **40 qəpik**

# Şəhidlərimizin qırx mərasimi keçirilib

Ötən həftə respublikamızın bölgələrində, Bakı şəhərində və onun qəsəbələrində aprelin əvvəlində qoşunların təmas xəttində erməni işğalçıları tərəfindən mövqelərimizə və yaşayış məntəqələrinə edilən təxribatçı hücumun qarşısını alarkən qəhrəmancasına həlak olmuş şəhidlərimizin qırx mərasimləri keçirilib. Həmin günlər torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına şəhid olmuş igidlərimizdən biri də Binəqədi rayon sakini Emin Bağırov idi…





Şəhidimizin mayın 14-də Binəqədi kəndində keçirilən qırx mərasimində Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, millət vəkilləri – Madər Musayev və Kamaləddin Qafarov, RİH başçısının müavinləri, Aparatın şöbə müdirləri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə və təşkilatların kollektivləri, ictimaiyyət nümayəndələri, şəhidin yaxınları iştirak ediblər.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, şəhid Emin Bağırov ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif olunub. Mərasimdə medal şəhidin atası İmran Bağırova təqdim edilib.

Tədbirdə iştirak edən Müdafiə Nazirliyinin nümayəndəsi şəhidin keçdiyi döyüş yolundan, göstərdiyi qəhrəmanlıqlardan danışıb. Xatırladaq ki, torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına şəhid olan E.Bağırov doğulduğu Binəqədi qəsəbəsində yerləşən kənd qəbiristanlığında torpağa tapşırılıb.

Mayın 19-da isə Biləcəri qəsəbəsində ötən ayın əvvəlində cəbhənin təmas xəttində gedən döyüşlərdə həlak olmuş şəhidimiz – Mahir Mirzəyevin qırx mərasimi keçirilib. Mərasimdə Binəqədi rayon rəhbərliyi ilə yanaşı, Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev, Nizami Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov, millət vəkilləri Kamaləddin Qafarov, Madər Musayev, Adil Əliyev, Rasim Musabəyov, Hikmət Babaoğlu, Binəqədi və Nərimanov rayonlarının idarə, müəssisə, təşkilat rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mərasimdə çıxış edən Milli Məclisin deputatı Adil Əliyev qüdrətli ordumuz tərəfindən aprel döyüşlərində erməni hərbi birləşmələrinin hücumunun qarşısının qətiyyətlə alındığını, həyata keçirilən operativ cavab tədbirləri nəticəsində sarsıdıcı zərbələrlə qəsbkarların xeyli sayda canlı qüvvə və hərbi texnikasının məhv edilərək düşmənin vahimə içində geri çəkildiyini və nəticə etibarilə işğal altında olan bəzi ərazilərimizin azad edilərək silahlı qüvvələrimizin daha əlverişli üstün mövqelərə sahib olduğunu vurğulayıb.

Mərasimdə çıxış edən digər iştirakçılar da işğal altında olan ərazilərimizin erməni qəsbkarlarından azad edilməsi istiqamətində aparılan əməliyyatlar zamanı son damla qanınadək döyüşərək qəhrəmancasına şəhid olmuş Vətən övladlarının döyüş meydanında göstərdiyi şücaətdən danışıb, Natiqlər Mahir Mirzəyevin də vətənpərvər ruhda böyüdüyünü və bu ülvi hisslərin sayəsində onun şəhidlik zirvəsinə ucaldığını qeyd ediblər. Şəhid övladlarımızın qəlbimizdə əbədi yaşayacağı və heç zaman unudulmayacağı vurğulanaraq, bu gün xalqımızda qələbəyə inam əzminin daha güclü olduğu və bu inamın Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə gün-ü-gündən inkişaf edən, maddi-texniki bazası gücləndirilən Azərbaycan Silahlı Qüvvələrinin sayəsində daha da yüksəldiyi, tezliklə erməni faşizmi üzərində möhtəşəm qələbənin gerçəkləşəcəyinə əminlik ifadə edilib.

Sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə şəhidin ölkəmizin ərazi bütövlüyünün qorunub saxlanılmasında və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi igidliyə görə təltif edildiyi "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medal Müdafiə Nazirliyinin əməkdaşı,



polkovnik-leytenant Hafiz Həsənov tərəfindən onun ailəsinə təqdim edilib.

Tədbirin sonunda şəhidin atası Sabir Mirzəyev dövlətimiz tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib, Mahirin tək özünün deyil, həm də şanlı Vətənin övladı olaraq müqəddəs şəhidlik zirvəsinə ucalması ilə qürur duyduğunu və Vətən çağıracağı təqdirdə, özünün də müsəlləh əsgər kimi silaha sarılaraq onu göz bəbəyi tək qorumağa hər an hazır olduğunu söyləyib, şəhidlərimizin qanının yerdə qalmayacağına inamını ifadə edib.

...Aprel ayında qoşunların təmas xəttində torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına şəhid olan daha bir rayon sakini – Fəxrəddin Qurbanlının qırx mərasimi Binəqədi qəsəbəsində keçirilib. Mərasimdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyevlə yanaşı adı çəkilən rayonlardan seçilmiş millət vəkilləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə və təşkilatların kollektivləri, ictimaiyyət nümayəndələri, şəhidin yaxınları iştirak ediblər.

Tədbirdə Binəqədi Rayon Səfərbərlik və Hərbi Xidmətə Çağırış İdarəsinin rəisi Mehman Qurbanov çıxış edərək Fəxrəddin Qurbanlının timsalında bütün şəhid övladlarımızın xalqımızın yaddaşında əbədi olaraq yaşayacağını və heç zaman unudulmayacağını deyib. O, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında tezliklə torpaqlarımızın işğaldan azad ediləcəyini və erməni işğalçıları üzərində böyük qələbənin gerçəkləşəcəyinə əminliyini söyləyib.

Sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə şəhidin ölkəmizin ərazi bütövlüyünün qorunub saxlanılmasında və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi igidliyə görə təltif edildiyi "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı Müdafiə Nazirliyinin əməkdaşı, polkovnik-leytenant Hafiz Həsənov tərəfindən C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının kollektivinin hazırladığı bədii kompozisiyanın müşayiəti ilə ailəsinə təqdim edilib. Şəhidin atası Seyfəddin Qurbanlı dövlətimiz tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib, övladının Vətən uğrunda şəhidlik zirvəsinə ucalması ilə qürur duyduğunu deyib.

## Binəqədi rayonu Rəsulzadə qəsəbəsində sakinlər müayinə olundu




Mayın 26-da Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş 9 saylı Binəqədi ikinci seçki dairəsi üzrə Milli Məclisin üzvü Kamaləddin Qafarovun təşəbbüsü və Binəqədi rayon İcra Hakimiyyətinin təşkilati dəstəyi ilə Azərbaycan Respublikasının Milli Onkologiya Mərkəzinin peşəkar həkimləri tərəfindən M. Ə. Rəsulzadə qəsəbəsində yerləşən Ə. Məlikov adına 6 saylı Mərkəzi Xəstəxananın həyətində əhalinin onkoloji müayinəsinə başlanılıb. Mərkəzin həkimləri müasir tibbi avadanlıqların köməyi ilə müraciət edən əhaliyə bir neçə istiqamətdə baş, boyun, mamoloq və ultrasəs müayinəsi (USM) üzrə müayinələr həyata keçirilib. Səhər saat 9-da başlayan aksiya saat 15-dək davam edib və bu müddət ərzində müraciət edən bütün vətəndaşlar müayinə olunublar.

Qeyd edək ki, aksiyaya Binəqədi rayon İcra Hakmiyyəti, Yeni Azərbaycan Partiyası Binəqədi rayon Təşkilatı və M.Ə.Rəsulzadə Bələdiyyəsi tərəfindən təşkilati dəstək göstərilib.



Ə.Məlikov adına 6 saylı Mərkəzi Xəstəxanası xəstələrin qeydiyyatı aparılıb. Müayinələr xəstəxananın müayinə otaqlarında və həyətdə yaradılmış səyyar həkim briqadaları tərəfindən aparılıb. Vətəndaşların müayinələrinin nəticələri rəsmi qaydada özlərinə təqdim edilib. Gün ərzində müayinə olunmaq üçün aksiyaya yüzlərlə insan qatılıb.

## Vətən öz qəhrəman övladlarını unutmur

276 saylı tam orta məktəbdə keçirilən "Vətən qəhrəmanlarını unutmur" mövzusunda tədbirdə təhsil müəssisəsinin direktoru Bəhram Şiriyev, Azərbaycanın Milli Qəhrəmanı Zabit Quliyev, Bakı şəhəri üzrə Təhsil İdarəsinin nümayəndəsi Mürsəl Qurbanov, "Milli Qəhrəmanları Tanıtma" İctimai Birliyinin Binəqədi rayon şöbəsinin sədri Füzuli Həsənov, "Əfqanıstan Veteranları" İctimai Birliyinin rayon şöbəsinin sədri Mahəddin Rüstəmov, "Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri" İctimai Birliyinin rayon şöbəsinin sədri İlham Qayıbzadə, Qarabağ müharibəsi veteranı Yusif Quzanov, həmçinin məktəbin şagird və müəllim kollektivi iştirak ediblər.



Tədbir iştirakçıları əvvəlcə Vətən uğrunda döyüşlərdə şəhid olan igidlərimizə həsr olunmuş stendlə tanış olublar. Dövlət himni səsləndirildikdən sonra ötən ayın əvvəlində cəbhənin təmas xəttində baş vermiş hadisə zamanı şəhid olmuş hərbçilərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Giriş sözü ilə çıxış edən Bəhram Şiriyev bildirib ki, bu cür tədbirlərin məktəblərdə təşkil olunmasında əsas məqsəd yetişməkdə olan gənc nəslə vətənpərvərlik ruhunu aşılamaq və qəhrəmanlarımızı daha yaxından tanıtmaqdır: "Respublikamızın əksər gəncləri öz vətəndaşlıq borclarını yaxşı başa düşür, torpaqlarımızın qorunmasında və milli dövlətçilik quruculuğunda fəal iştirak edirlər. Vətənin taleyinin təhlükə altında olduğu bir zamanda xalqın mərd, sadiq gənclərə böyük ehtiyacı var. Buna görə də ölkəmizdə gənclər arasında vətənpərvərlik hissinin daha da gücləndirilməsi sahəsində məqsədyönlü və sistemli iş aparılır. Müstəqilliyini bərpa etmiş dövlətimizin ideologiyasının, həmçinin azərbaycançılıq və yurdsevərlik ideyalarının gənclər arasında təbliğ olunmasına böyük ehtiyac var. Azərbaycanımız üçün əsl vətəndaş yetişdirmək təhsil ocaqlarımızın qarşısında böyük vəzifələr qoyur. Torpaqlarımız uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olan şəhidlərimiz gənclərimiz üçün nümunədir. Xalqın qəhrəmanlıq dastanını, azadlığını canı ilə qazanıb, qanı ilə yazan şəhidlərimizin əziz xatirəsi, illər, əsrlər keçsə də, xalq tərəfindən heç vaxt unudulmayacaq. Yeniyetmə və gənclərin milli-mənəvi dəyərlər və vətənpərvərlik ruhunda tərbiyə olunması Binəqədi Rayon İcra Hakimiyyətinin diqqətində olan əsas məsələlərdəndir. Rayonumuzda mütəmadi olaraq bu silsilədən olan tədbirlər təşkil olunur, gənclərə vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik prinsipləri, milli-mənəvi dəyərlər aşılanır". Bildirilib ki, hazırda respublikamızda digər sahələrlə yanaşı, ordu quruculuğu da yüksək templə inkişaf edir. Azərbaycan ordusu ən müasir tələblərə cavab verən hərbi quruma çevrilib.

Çıxışlarda torpaqlarımızın 20 faizini işğal etmiş ermənilərin məkrli hərəkətlərindən danışılıb. Qeyd olunub ki, erməni quldurların işğalçılıq siyasəti nəticəsində 23 ildir 1 milyon soydaşımız ata-baba yurdlarından didərgin düşüb. Cəbhənin təmas xəttində baş vermiş son hadisələrə toxunan tədbir iştirakçıları hərbçilərimiz tərəfindən torpaqlarımızın bir hissəsinin işğaldan azad edildiyini deyiblər. Qeyd olunub ki, artıq dünya Azərbaycan ordusunun hansı gücə malik olduğunu hiss etməkdədir. Veteran döyüşçülər bildiriblər ki, Azərbaycan ordusu Ali Baş Komandanın rəhbərliyi altında öz qüdrətini daim qoruyacaq, işğal altında olan torpaqlarımızı tezliklə azad edəcək.

Sonra Zabit Quliyev Azərbaycanın milli qəhrəmanlarına həsr olunmuş kitabı məktəbin kitabxanasına bağışlayıb. Tədbirin sonunda şagirdlər Vətənə, torpağa həsr olunmuş şeirlər səsləndirib, mahnı oxuyublar.

# Su hövzələrində təhlükəsizliklə bağlı müşavirə




Binəqədi qəsəbəsi Mərkəzi Mədəniyyət evinin inzibati binasında Fövqəladə Hallar Nazirliyinin Bakı Regional Mərkəzinin əməkdaşları ilə birgə "Su hövzələrində insanların təhlükəsizliyinin təmin edilməsi" mövzusunda müşavirə keçirilib.

Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov giriş nitqi ilə çıxış edib. Sonra Bakı Regional Mərkəzin rəis müavini Tale Şamçiyev "Su hövzələrində əhalinin təhlükəsizliyinin təmin olunmasında Bakı Regional Mərkəzinin yerli icra hakimiyyəti orqanları ilə birgə fəaliyyəti" mövzusunda danışıb.

Dövlət Sularda Xilasetmə Xidmətinin təbliğat, tibb və təşkilat sektorunun müdiri Mənsur Piriyev, FHN Kiçik Həcmli Gəmilər üzrə Dövlət Müfəttişliyinin Qeydiyyat-reyestr şöbəsinin rəisi Muğam Əliyev, 16 saylı Təcili Tibbi Təxirəsalınmaz Yardım Stansiyasının həkimi Hikmət Əhmədov, Binəqədi rayon bələdiyyəsinin sədr müavini Rasim Gözəlov, Binəqədi Rayon Polis İdarəsinin İctimai təhlükəsizlik şöbəsinin rəisi Elman Seyidov və rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Fədai Hacıyev rayon ərazisində çimərliklərin yay mövsümünə hazırlıq ilə əlaqədar görülən işlər barədə hesabatlarını təqdim ediblər.

Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti və Fövqəladə Hallar Nazirliyinin Bakı Regional Mərkəzinin rayonun aidiyyəti təşkilatları ilə birgə su hövzələrində sakinlərin təhlükəsizliyinin təmin edilməsi üçün təxirəsalınmaz tədbirlərin təşkilinin əsas məsələ olduğu bildirilib.

# Balaca fidanlar "Yaşıl dağ" aksiyasında

Mayın 14-də 5 saylı Bakı "ASAN xidmət" Mərkəzində IDEA İctimai Birliyinin təşəbbüsü, Təhsil Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təşkilati dəstəyi ilə kağız tullantıların toplanmasına həsr olunan "Hər kağızı bir yarpağa deyişək" layihəsi çərçivəsində növbəti "Yaşıl dağ" sosial aksiyası keçirilib.

Tədbirdə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov, ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov, təhsil nazirinin müavini Firudin Qurbanov, IDEA İctimai Birliyinin nümayəndəsi Fərid Cəfərov, "Azərsun Holdinq"in idarə heyətinin sədri Abdulbari Gözəl və digərləri çıxış ediblər.

Aksiyanın keçirilməsində məqsəd ekoloji maarifləndirməyə diqqət çəkmək, kağız israfını azaltmaq, təkrar emalı təşviq etmək yolu ilə ağacların qorunmasına, təbiətin mühafizəsinə və ekoloji balansın saxlanılmasına nail olmaqdır.




Tədbirdə Binəqədi rayonu ərazisində yerləşən 138 saylı körpələr evi-uşaq bağçasının kiçik sakinləri də iştirak ediblər. Balaca fidanlar ekologiya ilə bağlı maraqlı kompozisiya nümayiş etdirib və "Təbiəti qoruyaq" adlı mahnı oxuyublar.

# Azərbaycanda müxtəlif xalqların dəyərlərinə hörmətlə yanaşılır

Yeni Azərbaycan Partiyası (YAP) Binəqədi rayon təşkilatının inzibati binasında YAP Qadınlar Şurasının təşkilatçılığı ilə "Multikultural dəyərlər və Azərbaycançılıq" mövzusunda tədbir keçirilib. Tədbirdə Milli Məclisi üzvü, YAP Qadınlar Şurasının sədr müavini Sevinc Fətəliyeva, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini, YAP Qadınlar Şurasının İdarə Heyətinin üzvü Sədaqət Qəhrəmanova, YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov, Binəqədi, Abşeron rayonlarının və Sumqayıt şəhər partiya təşkilatlarının fəal qadınları iştirak ediblər.



Əvvəlcə ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyevin rayon təşkilatının binası qarşısında ucaldılmış büstü önünə gül dəstələri düzülüb, ulu öndərin əziz xatirəsi ehtiramla yad edilib. Tədbiri giriş sözü ilə açan Ramiz Göyüşov Azərbaycanda mövcud olan multikulturalizm mühitindən, xalqımızın bu müqəddəs amallara hər zaman sadiqliyindən bəhs edib. Multikulturalizm siyasətinin əsasının ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu və bu gün dövlət başçısı İlham Əliyevin bu siyasəti uğurla davam etdirdiyi bildirilib. Ölkəmizdəki multikulturalizm dəyərlərinin günbəgün artdığını və bunun bütün dünya ölkələrinə nümunə olduğunu vurğulayan R.Göyüşov bu siyasətin bundan sonra da davam etdirilməsi və gələcək nəsillərə aşılanması istiqamətində görülən işlərdən, həyata keçirilən çoxsaylı tədbirlərdən danışıb.

Tədbirdə çıxış edən Sevinc Fətəliyeva multikulturalizmin mövzusunun aktuallığından danışaraq YAP Qadınlar Şurasının bu mövzu ətrafında silsilə tədbirlər keçirdiyini bildirib. O, Prezident İlham Əliyev tərəfindən 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsinin səbəbsiz olmadığını, multikulturalizm dəyərlərinin qorunması və təbliğinə dövlət tərəfindən yüksək diqqət, qayğı göstərildiyini deyib. Natiq ölkəmizdə dilindən, dinindən, irqindən asılı olmayaraq, bütün xalqların nümayəndələri üçün yaradılan yüksək şəraitdən bəhs edib, Azərbaycanda kilsələrin, sinaqoqların tikintisinə dövlət vəsaitinin ayrıldığını, müxtəlif dinlərə itaət edən insanların sərbəst və rahat ibadət etmələri, yaşamaları üçün hər cür şəraitin yaradıldığını vurğulayıb. S.Fətəliyeva, həmçinin, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın bu sahədəki fəaliyyətindən geniş söhbət açıb.

Sədaqət Qəhrəmanova çıxışında Azərbaycanın özünəməxsus multikulturalizm dəyərlərinin olduğunu və bu dəyərlərin daim qorunduğunu söyləyib. O, ölkəmizdə keçirilən çoxsaylı beynəlxalq tədbirləri, idman yarışlarını nümunə göstərərək Azərbaycanın bununla bütün dünyaya qucaq açdığını bildirib, Avropanın multikulturalizm dəyərləri ilə bağlı Azərbaycan təcrübəsindən yararlandığını və bu siyasətin bundan sonra uğurla, məqsədyönlü şəkildə davam etdirilməsinin əhəmiyyətini diqqətə çatdırıb. Bu istiqamətdə ölkəmizin ziyalı qadınlarının üzərinə böyük məsuliyyət düşdüyünü söyləyən natiq hər bir vətəndaşın bu işə səfərbər olunmasının və bu dəyərlərin təbliğinə böyük əmək sərf etməsinin əhəmiyyətini qeyd edib.

Yığıncaqda YAP Binəqədi rayon təşkilatı Qadınlar Şurasının sədri Aytac Əliyeva, YAP Abşeron rayon təşkilatı Qadınlar Şurasının sədri Təyyubə Hüseynova, YAP Sumqayıt şəhər təşkilatı Qadınlar Şurasının üzvü Səkinə Sadıqova, Rus İcmasının nümayəndəsi Tatyana Məmmədova çıxış edərək multikulturalizmin Azərbaycanda dövləti siyasətinin mühüm tərkib hissəsi olduğunu vurğulayıblar. Qeyd olunub ki, ölkə Prezidenti İlham Əliyevin də qeyd etdiyi kimi, multikulturalizm Azərbaycanda həyat tərzidir və burada müxtəlif xalqların nümayəndələri birgə, mehriban şəraitdə yaşayırlar. Tarixən Azərbaycanda multikultural dəyərlər qorunub, bunu müxtəlif klassiklərimizin, intibah dövrü yazarlarının, maarifçi-demokratların əsərlərindən də aydın görmək olar.

Tədbir mövzu ətrafında müxtəlif müzakirələrin aparılması ilə yekunlaşıb.

# "Hərəyə bir bayraq verək"



Binəqədi rayon İcra Hakimiyyətinin və Binəqədi rayon bələdiyyəsinin təşkilatçılığı ilə 28 May Respublika Günü münasibətilə Binəqədi rayonun balaca sakinlərinin iştirakı ilə "Hərəyə bir bayraq verək" aksiyası keçirilib.

Binəqədi rayon bələdiyyəsindən start götürən aksiyaya rayonun 272 saylı körpələr evi–uşaq bağçasının balaca fidanları qoşulub. Aksiya zamanı ərazilər boyunca balaca fidanları Binəqədi rayon İcra Hakimiyyətinin əməkdaşı Leyla Kərimova, Binəqədi rayon bələdiyyəsinin sədri Sitarə Cabbarlı, 1 və 2 saylı sahə inzibati ərazi dairəsi üzrə nümayəndələri Dilbər Şükürova, Ləman Əliyeva və bağçanın müəllim nümayəndələri müşayət edib.



Uşaqlar hərbi formada Binəqədi rayonu ərazisində yerləşən "Heydər" məscidi, Zərifə Əliyeva adına park, Zərifə Əliyeva adına Oftomologiya Mərkəzi, A.Məmmədov parkı, 6 –cı mikrorayon boyunca əraziləri gəzərək əllərindəki üçrəngli bayraqları veteranlara, qocalara, təqaüddə olan ağsaqqallara, məktəblilərə, polis işçilərinə, səhiyyə sahəsində çalışan işçilərə, müharibə, Qarabağ əlillərinə, milli qəhrəmanların ailə üzvlərinə, ərazidə Azadlıq prospekti boyunca yol təmirində çalışan fəhlələrə, avtobus dayanacaqlarında duran sürücülərə, fiziki məhdud olan insanlara və öz həm yaşıdlarına paylayıblar. Bütün sakinlər tərəfindən maraqla qarşılanan "Hərəyə bir bayraq verək" aksiyası hamıda sevinc və yüksək əhval-ruhiyyə yaradıb.

Aksiya başa çatdıqdan sonra Binəqədi rayon bələdiyyəsinin inzibati binasında balaca fidanlarla çay süfrəsi ətrafında səmimi görüş davam edib. Daha sonra Binəqədi bələdiyyəsi tərəfindən uşaqlara hədiyyələr verilib və xatirə şəkli çəkdirilib.

# Məktəblilər Müasir İncəsənət Muzeyində...



Binəqədi Rayon İcra Hakimiyyəti və rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə 18 May – Beynəlxalq Muzeylər Günü münasibətilə məktəblilərin Müasir İncəsənət Muzeyinə ekskursiyası təşkil olunub.

Muzeyin əməkdaşı muzeyin yaranması tarixi, burada sərgilənən ekspozisiyalar barədə şagirdlərə ətraflı məlumat verib. Bildirilib ki, Müasir İncəsənət Muzeyi Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü və Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılıb. Muzeyin ekspozisiyasının əsasını XX əsrin II yarısından bu günə qədər Azərbaycan avanqardının ən yaxşı rəsm və heykəltəraşlıq əsərləri təşkil edir. Bu ekspozisiya müşahidələr, axtarışlar və insan ruhunun azadlığını təmsil edən rəsm və heykəltəraşlıq əsərləri toplusudur. Muzeydə başqa ölkələrin müasir sənətkarlarının rəsm və heykəltəraşlıq əsərləri də təmsil olunub: Qərb avanqardının nümayəndələri Pablo Pikasso, Mark Şaqal, Salvador Dalinin əsərləri ayrıca zalda nümayiş etdirilir. Burada, həmçinin, Səttar Bəhlulzadə, Tahir Salahov, Mikayıl Abdullayev, Hüseyn Əliyev, Tağı Tağıyev, Nadir Əbdürrəhmanov, Elmira Şaxtaxtinskaya, Nadir Qasımov, Oktay Sadıxzadə, Tokay Məmmədov, Toğrul Nərimanbəyov, Ömər Eldarov kimi Azərbaycan incəsənətin klassiklərinin kolleksiyaları da təqdim olunub.

Muzeydə ziyarətçilərin istirahətinin maraqlı və faydalı təmin edilməsi üçün oxu zalı, video zal və "Art" kafe də fəaliyyət göstərir. Özündə memarlıq və dizayn, rəssamlıq və heykəltəraşlığı birləşdirən vahid orqanizm kimi nəzərdə tutulmuş muzeyin konsepsiyası, memarlığı və dizaynının, instalyasiyasının, kolleksiya və ekspozisiya çeşidinin müəllifi rəssam Altay Sadıxzadədir.

Qeyd edək ki, ekskursiyada rayon Gənclər və İdman İdarəsi tərəfindən keçirilmiş rəsm müsabiqələrində fərqlənmiş şagirdlər iştirak etmişlər.

# "Qarabağ inciləri" tamaşasının təqdimatı

Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında Binəqədi rayonunda yerləşən M.Maqomayev adına 26 nömrəli Onbirillik musiqi məktəbinin təqdimatında "Qarabağ inciləri" adlı musiqili tamaşa nümayiş olunub.



Tədbirdə Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin rəisi Vüqar Zeynalov, Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Rəvanə Əliyeva, Azərbaycan Dövlət Konservatoriyasının professorları Zemfira Qafarova, Şəfiqə Eyvazova, Bakı uşaq musiqi və incəsənət məktəblərinin direktorları, şagirdlər və valideynlər iştirak ediblər.

Musiqili tamaşada məktəblilər şairə Xurşidbanu Natəvanın, dahi bəstəkarımız Üzeyir Hacıbəylinin, tanınmış fransız yazıçısı Aleksandr Dümanın obrazlarını canlandırıblar. Məktəbin müəllim və şagirdləri Ü.Hacıbəylinin "Leyli və Məcnun" və "Arşın mal alan", V.Adıgözəlovun "Natəvan" operasından fraqmentlər səsləndiriblər, A.Vivaldinin "İlin fəsilləri", Baxın "Menuet", əsərlərindən parçalar ifa ediblər.

İştirakçıların ifasında "Qarabağ şikəstəsi", "Çahargah" kimi muğamlar tamaşaçıların xüsusi alqışları ilə müşayiət olunub. Milli mədəniyyətimizi tərənnüm edən musiqili tamaşa hər kəsdə xoş təəssürat yaradıb və anşlaqla keçib.



# Müasir müstəqil Azərbaycan Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir

**Ümummilli lider Heydər Əliyev:**
**"Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi".**



Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaranmasından 98 il ötür. Azərbaycan tarixinin şanlı səhifələrindən olan, xalqımızın milli azadlıq mücadiləsinin məntiqi nəticəsi sayılan və müasir dövlətçilik tariximizdə önəmli yerə malik olan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin Şərqi üçün milli dövlətçilik ənənələri baxımından perspektiv inkişafın əsasına çevrildi. 23 ay mövcud olmasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti böyük bir coğrafiyanın siyasi həyatında mühüm rol oynadı, Cümhuriyyətin fəaliyyəti sayəsində dövlətçilik tariximizin əsasları daha da zənginləşdi.

Bu gün Cümhuriyyətin yaranmasından 98 il ötməsinə baxmayaraq, hər bir azərbaycanlı bu şanlı tarix ilə qürur duyur. XX əsrin sonunda yenidən müstəqillik əldə edən Azərbaycan dövləti Ulu öndər Heydər Əliyevin zəngin siyasi təfəkkürü, idarəçilik təcrübəsi və rasional fəaliyyəti sayəsində Azərbaycan Xalq Cümhuriyyətinin taleyini yaşamaqdan, yəni qısa zamanda müstəqilliyini itirməkdən qurtuldu. Ulu öndər Heydər Əliyev həmin dövrdə ciddi təhdid və təhlükələr qarşısında olan müstəqilliyimizi qorudu və müasir, güclü, nüfuzlu dövlət kimi çıxış edən və böyük bir regionda lider ölkəyə çevrilən Azərbaycanın təməlini qoydu.

## Milli istiqlaliyyət mücadiləsinin şanlı səhifəsi – Azərbaycan Xalq Cümhuriyyətinin yaranması

Ötən əsrin ilk iyirmi ili bir sıra xalqların həyatında mühüm hadisələrlə yadda qaldığı kimi Azərbaycan xalqının da tarixində silinməz izlər qoydu.

1917-ci ilin oktyabrında çar Rusiyasında baş verən hakimiyyət çevrilişi nəticəsində Cənubi Qafqazdan Rusiyanın Müəssislər Məclisinə seçilən deputatlar Petroqrada və Moskvaya gedə bilmədilər. Onlar 1918-ci il fevralın 14-də Tiflisdə Zaqafqaziyanın ali hakimiyyət orqanı olan Zaqafqaziya Seymini, başqa sözlə, Zaqafqaziya Parlamentini yaratdılar. Zaqafqaziya Seymində Müsəlman Fraksiyasını Müəssislər Məclisinə seçkilər zamanı Azərbaycanın, habelə bütün Cənubi Qafqazın bir milyondan çox türk-müsəlman seçicisinin səsini qazanmış 44 deputat təmsil edirdi. Zaqafqaziya Seyminin Müsəlman Fraksiyası, faktiki olaraq, Zaqafqaziya Müsəlman Şurası, daha doğrusu, Zaqafqaziya Müsəlman Parlamenti funksiyasını yerinə yetirirdi. Zaqafqaziya Seyminin ən aktiv üzvləri olan Azərbaycan nümayəndələri 1918-ci il aprelin 9-da Zaqafqaziya Seyminin – Zaqafqaziyanın müstəqilliyini elan etdi və Birləşmiş Zaqafqaziya Cümhuriyyəti yaradıldı. Bununla belə istər daxili, istərsə də xarici siyasət sahəsində kəskin milli mənafe ziddiyyətlərinin ortaya çıxması Zaqafqaziya Seymini dağıtdı və mayın 25-də gürcü nümayəndələr, mayın 27-də Seymin Müsəlman Fraksiyası Seymdən ayrıldıqlarını bəyan etdilər. Zaqafqaziya Müsəlman Şurasının ayrıca iclasında isə Azərbaycanın müstəqilliyinin elan edilməsinə qərar verildi. 1918-ci il mayın 27-də keçirilən həmin iclasda Azərbaycan Milli Şurasının Rəyasət Heyəti və sədri seçildi. Məhəmməd Əmin Rəsulzadə Milli Şuranın sədri oldu. Mayın 28-də Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli Şurasının tarixi iclası keçirildi. Həmin iclasda iştirak edən Həsən bəy Ağayev (sədr), Mustafa Mahmudov (katib), Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Yusifbəyli, Mir Hidayət Seyidov, Nəriman bəy Nərimanbəyov, Heybət Qulu Məmmədbəyov, Mehdi bəy Hacınski, Əli Əskər bəy Mahmudbəyov, Aslan bəy Qardaşov, Sultan Məcid Qənizadə, Əkbər Ağa Şeyxülislamov, Mehdi bəy Hacıbababəyov, Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlik-Aslanov, Rəhim bəy Vəkilov, Həmid bəy Şahtaxtinski, Firidun bəy Köçərlinski, Camo bəy Hacınski, Şəfi bəy Rüstəmbəyov, Xosrov Paşa bəy Sultanov, Cəfər Axundov, Məhəmməd Məhərrəmov, Cavad Məlik-Yeqanov və Hacı Molla Səlim Axundzadə Azərbaycanın İSTİQLAL BƏYANNAMƏSİNİ qəbul etdilər.

Azərbaycan Milli Şurasının İstiqlal Bəyannaməsində göstərilirdi ki, artıq Azərbaycan xalqı hakimiyyətə malik olduğu kimi, Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tam hüquqlu müstəqil bir dövlətdir. Müstəqil Azərbaycan dövlətinin idarə forması isə Xalq Cümhuriyyətidir. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə, xüsusilə qonşu olduğu millətlər və dövlətlərlə mehriban münasibətlər yaratmaq əzmindədir: "Azərbaycan Xalq Cümhuriyyəti milliyyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq öz sərhədləri daxilində yaşayan bütün vətəndaşlarına siyasi hüquqlar və vətəndaşlıq hüququ təmin edir. Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərin sərbəst inkişafı üçün geniş imkanlar yaradır. Müəssislər Məclisi toplanıncaya qədər Azərbaycanın başında xalqın seçdiyi Milli Şura və Milli Şura qarşısında məsuliyyət daşıyan Müvəqqəti hökumət durur".

Azərbaycan Milli Şurası həmin iclasında, eyni zamanda, bitərəf Fətəli xan Xoyskinin başçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin ilk Müvəqqəti Hökumətinin tərkibini də təsdiq etdi.

## Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlətçilik ənənələri və idarəetmə mədəniyyəti formalaşdırdı

Cəmi 23 ay yaşayan Cümhuriyyət dövlət quruculuğu sahəsində mühüm qərarları ilə yadda qaldı. 1918-ci il iyunun 26-da Xalq Cümhuriyyətinin hökuməti Azərbaycanın ilk Milli Ordu hissəsinin – əlahiddə diviziyanın yaradılması barədə qərar qəbul etdi. Həmin dövrdə Cümhuriyyət hökumətinin tabeliyində olan hərbi qüvvələr türk (Osmanlı) ordu hissələri ilə birlikdə ("Qafqaz İslam Ordusu") Nuru paşanın komandanlığı altında "Bakı Kommunası"nın qoşunları ilə qızğın döyüşlər aparırdı. Cümhuriyyətin Hərbi Nazirliyinin təşkili barədə qərar bir qədər sonra – avqustun 1-də verildi. Nazirlik özü isə 1918-ci ilin dekabrında fəaliyyətə başladı. Keçmiş çar Rusiyası ordusunun generallarından Səməd bəy Mehmandarov hərbi nazir, Əliağa Şıxlinski hərbi nazirin müavini təyin edildilər. Həmin ayın 27-də isə Azərbaycanın tarixində ilk dəfə olaraq Azərbaycan dilinin dövlət dili elan edilməsi haqqında qərar qəbul olundu. 2 iyul 1918-ci il tarixdə isə Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri və daxili işlər naziri Fətəli xan Xoyski ölkədə ilk polis bölümünün yaradılması barədə əmr verdi. Bununla da Azərbaycan polis orqanlarının əsası qoyuldu. 1918-ci il noyabrın 9-da Azərbaycanın indiki üçrəngli dövlət bayrağı qəbul edildi. Eyni zamanda, Azərbaycan vətəndaşları haqqında qanun da qəbul olundu.

Azərbaycan Xalq Cümhuriyyəti mövcud olduğu 23 ayda həm də xalqımızı dünyaya tanıtmaqla mühüm bir tarixi missiyanı yerinə yetirmiş oldu. Bu mənada, yürüdülən xarici siyasətinin ən önəmli uğurlarından biri kimi Versal Ali Şurası tərəfindən 1920-ci ilin yanvarında Azərbaycanın de-fakto müstəqil dövlət kimi tanınmasına nail olunması xüsusi qeyd edilməlidir. Artıq 1919-cu ilin sonlarında Azərbaycan Cümhuriyyəti 20-dən artıq çox ölkə ilə diplomatik əlaqələr yaratmışdı.

Qeyd etmək lazımdır ki, Azərbaycan Milli Şurasının 1918-ci il noyabrın 19-da M.Ə.Rəsulzadənin sədrliyi ilə keçirilən iclasında çox mühüm qərarlar qəbul olundu. O zaman Azərbaycan Xalq Cümhuriyyətinin fövqəladə dərəcədə çətin və mürəkkəb şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, Xalq Cümhuriyyəti son dərəcə demokratik inkişaf yolu tutdu. 19 noyabr tarixli həmin iclasda qeyd olundu ki, Azərbaycan ərazisində yaşayan bütün millətlər parlamentdə təmsil olunmalıdır.

## Milli dövlətçiliyin əsaslarının gücləndirilməsi istiqamətində növbəti addımlar

AXC-nin şanlı tarixindən bəhs edərkən milli dövlətçilik nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb edən bir məsələyə xüsusi diqqət yetirmək lazımdır. Belə ki, Cümhuriyyət parlamenti milli dövlətçiliyin gücləndirilməsi nöqteyi-nəzərindən böyük əhəmiyyət daşıyan – xalq maarifinin inkişafına çox mühüm təkan verən vəzifələrdən birini reallaşdırdı. Ali qanunverici orqan tərəfindən 1918-ci il 27 iyun tarixli qərarı qəbul edildi. Qərara əsasən, Azərbaycan dili dövlət dili elan olundu. Lakin ana dilini mükəmməl bilən ixtisaslı kadrların olmaması qərarın həyata keçirilməsini müəyyən qədər çətinləşdirirdi. Buna görə də inzibati idarə orqanlarında, məhkəmə işində və başqa sahələrdə Azərbaycan dilini bilən ixtisaslı kadrlar hazırlanana qədər müvəqqəti olaraq digər dillərdən istifadəyə yol verilirdi. Cümhuriyyət hökuməti milli kadrların yetişdirilməsinə, bu sahədə təhsilin tamamilə yenidən qurulmasına xüsusi əhəmiyyət verirdi. Təhsil sahəsində həyata keçirilən ilk mühüm tədbir məktəblərin milliləşdirilməsi oldu.

Azərbaycan hökumətinin 1918-ci il 28 avqust tarixli qərarında göstərilirdi ki, bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin ana dilində aparılmalı və dövlət dili olan Azərbaycan dilinin tədrisi icbari surətdə həyata keçirilməlidir. Azərbaycan dilini bilməyən şagirdlər üçün üçüncü və dördüncü siniflərdə ana dili intensiv şəkildə tədris olunurdu ki, 2 ildən sonra həmin şagirdlər artıq öz dillərində təhsillərini davam etdirə bilsinlər.

Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlər nəticəsində artıq 1919-cu ilin əvəllərində ölkədə dövlət hesabına 637 ibtidai məktəb və 23 orta ixtisas təhsilli məktəb fəaliyyət göstərirdi. Orta məktəblər arasında 6 kişi və 4 qadın gimnaziyası, 3 müəllimlər seminariyası, 3 qız tədris müəssisəsi, politexnik və kommersiya məktəbləri var idi.

Təhsildən bəhs edərkən vurğulamaq gərəkdir ki, Cümhuriyyət Parlamentinin 1919-cu ilin sentyabr ayının 1-də Bakı Dövlət Universitetinin təsis olunması haqqında qəbul etdiyi qanun xüsusi əhəmiyyətə malikdir. Milli universitetin açılması Cümhuriyyət xadimlərinin xalqımız qarşısında çox mühüm tarixi xidməti idi. Sonralar Azərbaycan Xalq Cümhuriyyəti süqut etsə də, Cümhuriyyət ideyalarının yaşamasında və xalqımızın yenidən müstəqilliyə qovuşmasında Bakı

Dövlət Universiteti misilsiz rol oynadı.

## Milli istiqlaliyyətə vurulan zərbə və AXC-nin süqutu

Bütün bunlara baxmayaraq, Odlar Diyarı daha bir işğal faktı ilə üz-üzə qaldı. 27 aprel 1920-ci il tarixdə Bolşevik Rusiyasının XI Ordusu Bakıya daxil oldu. Bu vaxt Xalq Cümhuriyyətinin ordu hissələri Qarabağda və Gəncəbasarda qiyamçı erməni qüvvələri ilə döyüşdə idi, azsaylı sərhəd qoşunları isə rus ordusuna müqavimət göstərə bilməmişdi. Bolşevik rəhbərliyi – Azərbaycan K(b)P MK və Rusiya K(b)P Qafqaz Diyar Komitəsinin Bakı Bürosu hakimiyyəti təhvil vermək barədə Xalq Cümhuriyyətinin parlamentinə ultimatum verdi. Meydana çıxmış situasiyanı dəyərləndirən parlament gərgin müzakirələrdən sonra ultimatumla razılaşdı və hakimiyyətin kommunistlərə verilməsi barədə qərar qəbul edildi. Parlamentin qərarında Azərbaycanın istiqlaliyyətinin və ərazi bütövlüyünün qorunması, Milli Ordunun saxlanılması, siyasi partiyalara fəaliyyət azadlığı, Cümhuriyyətin dövlət xadimlərinə təqiblərin olmaması barədə şərtlər yer almışdı. Lakin bolşeviklər sonradan bu şərtlərin heç birinə əməl etmədi. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti Sovet Rusiyasının hərbi təcavüzü nəticəsində 1920-ci ilin aprel ayının 28-də süqut etdi.

## AXC-nin Azərbaycanın dövlətçilik tarixindəki rolu daim xatırlanır, Cümhuriyyət rəhbərlərinin xatirəsi əziz tutulur

Tarix hər zaman ədalətin gec də olsa, bərpa olunması ilə təkrarlanıb. XX əsrin əvvəlində xalqımız qarşısında tarixi əhəmiyyət kəsb edəcək işlər görməyi qarşısına məqsəd qoyan Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan 71 il sonra xalqımız bir daha müstəqillik əldə etdi. Məlum olduğu kimi, 1991-ci il oktyabrın 18-də qəbul olunan Konstitusiya Aktında Azərbaycan Respublikasının AXC-nin siyasi varisi olması elan olundu. Bəzən "tarix təkrar olunur" deyirlər və 1993-ci ildə də tarixin təkrar olunmaması, müstəqilliyin itirilməməsi üçün xalqımız Ümummilli liderimiz Heydər Əliyevi Azərbaycan siyasi hakimiyyətinə dəvət etdi. Məhz Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji kurs sayəsində siyasi, hüquqi, iqtisadi, sosial, mədəni, ideoloji və digər sahələrdə əldə edilən nailiyyətlər Azərbaycanı müasir, müstəqil və güclü milli dövlətə çevirdi. Müasir, müstəqil dövlət kimi çıxış edən ölkəmiz özünün tərəqqisi ilə milli inkişafın Azərbaycan modelinin əsasını qoydu.

Bir məqəma xüsusi diqqət yetirmək gərəkdir ki, Azərbaycan dövlətçiliyini, milli maraqlarımızı hər şeydən üstün tutan, böyük siyasi xadim, xalqımızın Ümummilli lideri Heydər Əliyev hər zaman Azərbaycan Xalq Cümhuriyyətinin ölkəmizin müstəqillik tarixində mühüm yerə malik olduğunu bildirirdi. Ulu öndər Heydər Əliyev müasir Azərbaycan dövlətinin məhz 1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin varisi olmasını dəfələrlə bəyan edib. Bu nöqteyi-nəzərdən, müasir Azərbaycanın hər bir uğuru tariximizin parlaq səhifəsinə çevrilmiş Azərbaycan Xalq Cümhuriyyətinin formalaşdırdığı ənənələri özündə yaşadır və inkişaf etdirir.

Azərbaycan Respublikasının Cümhuriyyətin varisi olması fikri özünü əməli şəkildə göstərir. Bu gün Azərbaycanda həyata keçirilən siyasət vaxtilə Cümhuriyyət rəhbərlərinin qarşıya qoyduqları, lakin tamamlaya bilmədikləri işləri də əhatə edir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Xalq Cümhuriyyətinə, onun yaradıcılarına hörmət bu gün davam edir. 2007-ci ildə Bakıda "İstiqlaliyyət Bəyannaməsi" abidəsinin açılışı oldu. Açılış mərasimində iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev 1918-ci il mayın 28-də Tiflisdə elan edilən Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını dünya miqyasında tarixi hadisə adlandırdı.

Həmin gün 28 May – Respublika günü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevin adından təşkil olunan rəsmi qəbulda nitq söyləyən dövlət başçısı AXC-nin Azərbaycan tarixindəki rolunu qeyd edərək Şərqin ilk demokratik Cümhuriyyətinə olan hörməti ifadə edib: "Azərbaycan xalqı və Azərbaycan dövləti respublikanın fəaliyyətinə və onu yaradanların xatirəsinə çox böyük hörmətlə yanaşır. Bu hörmətin əlaməti olaraq bu gün biz Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinə həsr edilmiş abidənin açılışını qeyd etdik. O gözəl abidə paytaxtımızın gözəl guşələrinin birində – İstiqlaliyyət küçəsində ucaldıldı".

Prezident İlham Əliyev çıxışlarında AXC-nin Azərbaycan xalqı üçün tarixi hadisə olduğunu vurğulayıb: "Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi. Xalqımız üçün tarixi hadisə idi. Ona görə ki, Azərbaycan xalqı əsrlər boyu arzuladığı müstəqilliyə qovuşurdu. İslam dünyası üçün də tarixi hadisə idi, ona görə ki, ilk dəfə olaraq müsəlman Şərqində demokratik respublika yaranırdı".

Dövlət başçısı Cümhuriyyətin ömrünün çox qısa olmasına baxmayaraq, az zaman çərçivəsinə çox böyük işlər gördüyünü qeyd edib: "Dövlət atributları qəbul edildi. Dövlət bayrağımız təsdiq edildi. Dahi bəstəkarımız Üzeyir Hacıbəylinin əsəri olan Azərbaycan dövlət himni qəbul olundu. Digər istiqamətlərdə müsbət işlər görülmüşdür. Dövlət strukturları yaradılmışdır. Bir sözlə, ölkəyə xas olan bütün atributlar mövcud idi".

Azərbaycan Xalq Cümhuriyyətinin taleyi bir daha sübut etdi ki, müsətqilliyi əldə etməklə onu qoruyub saxlamaq eyni dərəcədə vacib məsələdir. Bu mənada qeyd etmək lazımdır ki, Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə həm də xalqımızın milli müstəqilliyinin xilaskarıdır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan Xalq Cümhuriyyətinin qısa tarixi bir daha onu göstərir ki, hər hansı bir qələbəni, nailiyyəti əldə etməkdən daha çətin, daha məsuliyyətli vəzifə onu qoruyub saxlamaqdır.

# Binəqədidə “Qarabağ həftəsi”

Binəqədi Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı və Binəqədi Rayon Gənclər və İdman İdarəsinin təşəbbüsü ilə “Qarabağ həftəsi” layihəsinə start verilib. Dövlətimiz və xalqımız üçün hər zaman müqəddəs amallardan olan vətənpərvərliyin təbliği, Azərbaycanın əzəli tarixi torpaqları olan Dağlıq Qarabağın ermənilər tərəfindən işğal olunması faktının geniş ictimaiyyətə çatdırılması məqsədilə həyata keçirilən layihə silsilə olaraq Binəqədi rayonunun 32 orta ümumtəhsil məktəbini əhatə edəcək. Layihə çərçivəsində məktəb şagirdlərinin təqdimatında erməni işğalı altında olan 12 rayonumuz haqqında müxtəlif məlumatlar, slaydlar, tarixi və mədəniyyət abidələri, tanınmış şəxsləri, musiqisi və s. haqqında dolğun məlumatlar müxtəlif fərqli təqdimatlar vasitəsilə çatdırılacaq. Münsiflər heyətinin qərarı ilə ən fərqli və maraqlı təqdimatları hazırlayan məktəblər mükafatlandırılacaq və onların iştirakı ilə layihənin yekun tədbiri təşkil olunacaq.




Mayın 16-da 297 və 300 saylı orta məktəblərin birgə təşkilatçılığı ilə “Qarabağ həftəsi” layihəsinin ilk təqdimatı keçirilib. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Rəvanə Əliyeva, YAP Binəqədi rayon təşkilatının Aparat rəhbəri Sevinc Abdullayeva, Binəqədi Rayon Gənclər və İdman İdarəsinin rəis müavini Sevinc Süleymanova, 297 və 300 saylı orta məktəbin kollektivi iştirak ediblər. Ağdərə rayonuna həsr olunmuş mərasimdə istedadlı şagirdlərin təqdimatında rayonun tarixi, ərazisi, əhalisi, iqtisadiyyatı haqqında ətraflı məlumat verilib. Bildirilib ki, Qarabağın ən çox azərbaycanlılar yaşadığı rayon olan Ağdərənin 14 kəndində ümumilikdə 14 min azərbaycanlı yaşayıb. Lakin 1993-cü ilin 7 iyulunda erməni qəsbkarlarının Ağdərə şəhərini və rayonun bir çox kəndlərini yenidən işğal etməsi nəticəsində soydaşlarımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüblər. Rayon haqqında geniş slaydın təqdimatından sonra şagirdlərin ifasında vətənpərvərliyi tərənnüm etdirən şeirlər, mahnılar səsləndirilib, rəqslər ifa olunub.

Sonra bu ilin 2-5 aprel tarixlərində Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində baş verən atışmada qəhrəmancasına vuruşan və şəhid olan oğullarımız haqqında və ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ordumuzla bağlı fikirlərini əks etdirən videoçarx nümayiş olunub.

“Qarabağ həftəsi” layihəsi çərçivəsində növbəti təqdimat mayın 17-də 83 saylı məktəb-lisey, 135 və 248 saylı orta məktəblərin birgə təşkilatçılığı ilə baş tutub. Xocalı rayonuna həsr olunmuş təqdimat mərasiminda YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov, Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin əməkdaşı və adı çəkilən məktəblərin kollektivləri iştirak ediblər. Təqdimat Azərbaycanın dövlət himninin və vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olmuş oğul və qızlarımızın əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb. Aparıcılar Xocalı rayonunun tarixi, etnoqrafiyası, coğrafi mövqeyi, iqtisadiyyatı, mətbəxi və s. haqqında danışıblar. Rayonun tarixi abidələri və maddi-mədəniyyət nümunələrinin geniş təqdimatı olub. İşğal altında olan Xocalıda səsləndirilən və məşhurlaşan musiqi-muğam əsərləri, həmçinin Molla Pənah Vaqifin həyatından bəhs edən səhnəcik nümayiş olunub. Təqdimat vətənpərvərliyə həsr olunmuş müxtəlif şeirlərin səsləndirilməsi ilə davam etdirilib. Qarabağda və Xocalı rayonunda multikulturalizm mühitinin nümayiş etdirilməsi və Xocalı soyqırımının, erməni quldurların dinc azərbaycanlılara qarşı törətdiyi vəhşiliklərin əks etdirildiyi səhnəcik tədbir iştirakçıları tərəfindən böyük həyəcanla izlənilib. Tədbirdə nitq söyləyən Ramiz Göyüşov 20 faiz torpaqlarımızın işğal olunduğunu və Azərbaycanın artıq 26 ildir ki, Ermənistanla müharibə şəraitində yaşadığını deyib. Bildirib ki, tarixən ermənilər tərəfindən azərbaycanlılara qarşı faciələr törədilib, Xocalı faciəsi isə təkcə Azərbaycanda deyil, bəşər tarixində öz ağlasığmaz vəhşilikləri ilə yaddaşlara həkk olunub.




Mayın 18-də 179 və 182 saylı orta məktəblərin birgə təşkilatçılığı ilə “Qarabağ həftəsi” layihəsi çərçivəsində Laçın rayonuna həsr olunmuş “Laçın nağılı” adlı növbəti təqdimat keçirilib. Tədbiri giriş sözü ilə açan 179 saylı məktəbin direktoru Kəmalə Şıxlinskaya layihənin əhəmiyyətindən danışıb, bugünkü təqdimatın məhz 18 may – Laçının işğalı günündə keçirildiyinin rəmzi xarakter daşıdığını vurğulayaraq, “Laçın nağılı” adlı təqdimatda rayonda baş verən mühüm tarixi hadisələrin bir neçəsinin səhnəciklərlə canlandırılacağını diqqətə çatdırıb.

Təqdimat hər iki məktəbin istedadlı şagirdlərinin ifasında müxtəlif səhnəciklərin nümayişi, şeirlər, rəqslər və mahnıların ifa edilməsi ilə davam edib. “Şəhrizadın nağılı” və “Dünya Qarı” (simvolik) tərəfindən Laçın rayonunun xoşbəxt günləri tamaşalarla təqdim edilib. Burada qədim dövrlər, orta əsrlər, 1918 və 1992-ci illəri əhatə edən hadisələr səhnəciklərlə göstərilib. Laçınlı şair Seyyid Həmzə və Mir Nigar, Sarı Aşıq və Yaxşı, ana və qızın canlandırdığı “Xalçaçılıq” tamaşaları ilə Laçının xoşbəxt günləri canlandırılıb. Həmçinin Xosrov bəy və Sultan bəy Sultanov qardaşlarının, eləcə də 1918-ci ilin erməni qırğınından bəhs edən “Şirvanlı qadın” adlı tamaşa erməni vəhşiliyinin mahiyyətini aydın şəkildə nümayiş etdirib. “İrəm” rəqs qrupunun ifasında göstərilən rəqslər alqışlarla qarşılanıb.

179 saylı orta məktəbin dil-ədəbiyyat müəllimi Pakizə Seyidovanın yazdığı ssenari əsasında nümayiş etdirilən təqdimat məşhur “Laçınım” mahnısı və şəhidlərimizin portretlərinin səhnəyə gətirilməsi ilə yekunlaşıb.




Layihənin növbəti təqdimat mərasimi 144, 157 və 267 saylı orta məktəblərin birgə təşkilatçılığı ilə baş tutub. Cəbrayıl rayonuna həsr olunmuş təqdimatda münsiflər heyətinin üzvləri, YAP Binəqədi rayon təşkilatının Aparat rəhbəri Sevinc Abdullayeva, Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Rəvanə Əliyeva, rayon Gənclər və İdman İdarəsinin rəis müavini Sevinc Süleymanova, mədəniyyət işçisi Zivər Abbasova, YAP Binəqədi rayon təşkilatının əməkdaşları Kubra Əliyarlı, Səbinə Zeynalova, 144 saylı məktəbin direktoru Həcər Mahmudova, 157 saylı orta məktəbin direktoru Gülayə Səttarova, 267 saylı orta məktəbin direktoru Adilə Orucova və məktəblərin müəllim və şagird kollektivi iştirak ediblər.

Əvvəlcə Milli Qəhrəman Famil İsgəndərovun adını daşıyan 157 saylı orta məktəbin həyətində onun xatirəsinə ucaldılmış büstü önünə güllər qoyulub, şəhidlərimiz ehtiramla yad edilib. 157 saylı orta məktəbin tarix müəllimi Ruslan Ağamalıyevin təqdimatında Cəbrayıl rayonun tarixi, qədim abidələri, mədəniyyət nümunələri, etnoqrafiyası, coğrafi mühiti, iqtisadiyyatı, mətbəxi və s. haqqında geniş slaydlar təqdim edilib. Tədbirdə, həmçinin, “Uzundərə” və “Sarı gəlin” rəqsləri, vətənpərvərliyi tərənnüm edən mahnı və şeirlər, tamaşalar nümayiş olunub. Tədbirdə çıxış edən Zivər Abbasova erməni işğalı altında olan torpaqlarımızın tezliklə azad olunacağına inandığını deyib.

“Qarabağ həftəsi” layihəsi çərçivəsində mayın 20-də Füzuli rayonu haqqında təqdimat keçirilib. Tədbirdə münsiflər heyətinin üzvləri, Uşaq Gənclər Yaradıcılıq Mərkəzinin direktoru Ziyad Nəbiyev, mədəniyyət işçisi Zivər Abbasova, YAP Binəqədi rayon təşkilatının əməkdaşları Kubra Əliyarlı, Rahil Şükürov, 3 saylı orta məktəbin direktoru Natəvan Əsədova, 102 saylı məktəbin direktoru Mailə İsmayılova, 276 saylı orta məktəbin direktoru Bəhram Şiriyev, məktəblərin müəllim və şagird kollektivi iştirak ediblər.

Tədbir Azərbaycanın dövlət himninin səsləndirilməsi ilə başlayıb. Sonra hər üç məktəbin istedadlı uşaqlarının təqdimatında erməni işğalı altında olan Füzuli rayonunun tarixi, adət-ənənələri, milli musiqisi, milli geyim nümunələri və s. barədə məlumatlar çatdırılıb. Bildirilib ki, 1993-cü ildə Füzuli rayonunun ərazisinin bir hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Hazırda 51 kənd və rayon mərkəzi ermənilərin işğalı altındadır və 55 min nəfərə yaxın füzulili öz doğma torpaqlarından qovulub. Lakin Azərbaycan ordusunun həmin ilin dekabr ayında başlatdığı əməliyyat nəticəsində işğal olunmuş 21 kənd və strateji cəhətdən əhəmiyyətli Horadiz qəsəbəsi işğaldan azad edilib. Təqdimatda Füzuli rayonunun şəhidləri, həmçinin tanınmış şəxsiyyətləri və ziyalıları haqqında slaydlar göstərilib. Musiqi tərtibatı ilə zəngin olan təqdimatda “Azərbaycan oğluyam”, “Vətənim Füzuli” (sazda), mahnılar, rəqslər, şeirlər səsləndirilib. Pənah xanın oğlu İbahimxəlil xanın həyatından və Füzuli hadisələrindən bəhs olunan səhnəciklər nümayiş etdirilib. Sonra üçrəngli Azərbaycan bayrağını özündə əks etdirən geyimlərlə səhnəyə çıxan uşaqlar müxtəlif mahnı və rəqslər ifa ediblər. Təqdimata Qarabağ şikəstəsi ilə yekun vurulub.




...Zəngilan rayonuna həsr olunmuş təqdimat mərasiminə ümummilli lider Heydər Əliyevin Azərbaycanın bu bölgəsi haqqında fikirləri ilə başlanılıb. İştirakçılara Zəngilan rayonunun tarixi, etnoqrafiyası, coğrafi mövqeyi, relyefi, tarixi abidələri və multikultural dəyərlərindən bəhs edən slaydlar təqdim edilib. Zəngilanın işğaldan öncə və işğaldan sonrakı vəziyyəti ətraflı təhlil edilərək ermənilərin törətdiyi vəhşiliklər bir daha nümayiş olunub. Rayondakı tarixi abidələrin və yaşayış məntəqələrinin dağıdıldığı diqqətə çatdırılıb, oradakı təbii sərvətlərimiz, dünyada birinciliyini qoruyub saxlayan cinar ağacları barədə ətraflı məlumatlar verilib. Təqdimatda istedadlı şagirdlər tərəfindən Zəngilana həsr olunmuş çoxsaylı şeirlər, “Şəhid arzuları”, “Qarabağ” mahnıları, “Heyratı” muğamı, “Qaval” rəqsi ifa olunub, səhnəcik göstərilib.

Zəngilanlı ziyalı, şair, pedaqoq Oqtay Zəngilanlı çıxışında “Qarabağ həftəsi” layihəsinin təşkilatçılarına minnətdarlığını bildirib. Qeyd edib ki, işğal altında olan tarixi torpaqlarımızdan bəhs edən tədbirlərin keçirilməsi və gənclərə onlar haqqında dolğun məlumatların çatdırılması olduqca vacibdir: “Zəngilan rayonu da zəngin tarixi və adət-ənənələri olan diyarımızdır. Oranın təbiəti, təbii sərvətləri, insanlarının qonaqpərvərliyi əsl nümunə idi. Təəssüflər olsun ki, ata-baba yurdumuz indi erməni işğalı altındadır. Lakin bu torpaqlarımızın Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tezliklə azad olunacağı gün uzaqda deyil”.

Təqdimat Müslüm Maqomayevin “Azərbaycan” mahnısının xorda ifası ilə yekunlaşıb.

Mayın 21-də 205, 301, 314 saylı orta məktəblərin birgə təşkilatçılığı ilə “Qarabağ həftəsi” layihəsi çərçivəsində işğal altında olan Xocavənd rayonuna həsr olunmuş təqdimat keçirilib. Təqdimat Azərbaycanın dövlət himnini səsləndirilməsi ilə başlayıb. 314 saylı orta məktəbin tarix müəllimi Ramal Alıyev tərəfindən Xocavənd rayonunun tarixi haqqında slaydlar təqdim olunub. Rayonun coğrafiyası, təbiəti, tarixi və dini abidələri barədə tədbir iştirakçılarına dolğun məlumatlar çatdırılıb. Bildirilib ki, Azərbaycanın inzibati ərazi vahidi olan Xocavənd rayonu 2 oktyabr 1992-ci il tarixində Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Heç bir beynəlxalq hüquq normalarına və insanlığa sığmayan bu işğalçılıq siyasəti nəticəsində rayona çoxsaylı maddi və mənəvi ziyan dəyib. İşğal nəticəsində rayonun azərbaycanlılar yaşayan 10 kəndində 1723 yaşayış evi ermənilər tərəfindən yandırılaraq əmlakları talan edilib. Onlarla sənaye, kənd təsərrüfatı obyektləri, təhsil, məktəbəqədər tərbiyə, səhiyyə, mədəniyyət müəssisələri, tarixi abidələr dağıdılaraq viran qoyulub.

Sonra “Qarabağı unutma”, “Məndən ötdü, qardaşıma dəydi”, “Heç vaxt gedə bilməz Qarabağ əldən”, “Ayağa dur, Azərbaycan, səninləyəm!”, “Gedək Qarabağa, gedək, millətim” şeirləri, vətənpərvərlik mövzusunda müxtəlif mahnılar səsləndirilib. Məktəblərin istedadlı şagirdlərinin canlandırdığı “Vaqif” dramı səhnəciyi də iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Tədbirdə, həmçinin, 314 saylı orta məktəbin şagirdlərinin atletika idman növü üzrə Bakı şəhər birinciliyində qalibiyyət qazanmaları münasibətilə onların mükafatlandırılması mərasimi keçirilib. Qalib gəlmiş şagirdlərə medal və fəxri fərmanlar təqdim olunub.

Mayın 23-də 284, 298, 299 saylı orta məktəblə-



rin iştirakı ilə Ağdam rayonu haqqında "Ağdamı heç vaxt unutmarıq" adlı təqdimat keçirilib. Vurğulanıb ki, Azərbaycanın tarixi-əzəli torpağı olan Ağdam rayonu 1993-cü ilin 23 iyul tarixində erməni silahlı birləşmələri tərəfindən işğal edilib. Qarabağ savaşında ən şox şəhid verən rayon məhz Ağdamdır.

Tədbirdə çıxış edən Səlim Əzimov və Əli Əmirli Ağdamda baş verən hadisələrin canlı şahidləri kimi, xatirələrini bölüşüblər. Hər iki ziyalı Ağdam haqqında yazdıqları kitablarda rayon haqqında müfəssəl məlumatların çatdırılmasına çalışdıqlarını bildiriblər.

Təqdimatda "Heyratı", "Qarabağ şikəstəsi" muğamları, "Sona bülbüllər", "Kəndimiz" (xorda), "Qarabağ" mahnıları, müxtəlif rəqslər ifa olunub, həmçinin İlyas Əfəndiyevin "Atayevlər ailəsi" pyesi əsasında tamaşa nümayiş etdirilib, "Azərbaycan əsgəri" şeiri və "Azərbaycan marşı" ilə tədbirə yekun vurulub.

Layihə çərçivəsində Şuşa rayonunun təqdimatının onlara həvalə olunmasından və alınmaz qalamız olan Şuşanın zəngin tarixinin və mədəniyyətinin gənclərə aşılanmasından böyük fərəh və qürur duyduqlarını söyləyib. İşğal altındakı bütün tarixi torpaqlarımız kimi, Şuşa rayonunun da bütün tarixi və mədəni abidələrinin ermənilər tərəfindən dağıdılması faktının bütün dünyaya çatdırılmalı olduğunu vurğulayıb.

244 saylı orta məktəbin direktoru Yəhya Abbasov çıxış edərək Şuşa rayonunun təqdimatına böyük həvəslə və qürurla hazırlaşdıqlarını, hər bir şagirdin vətənpərvərliyin təbliğinə yönəlmiş bu işdə böyük əzmkarlıq nümayiş etdirdiklərini bildirib. 283 saylı orta məktəbin direktoru Tünzalə Zeynalova çıxışında deyib ki, Azərbaycan dövləti Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində böyük işlər görür, genişmiqyaslı tədbirlər həyata keçirir. Xüsusilə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın birbaşa təşəbbüsü və rəhbərliyi ilə əzəli torpaqlarımız olan Qarabağın ermənilər tərəfindən işğal edilməsi faktı bütün dünyaya bəyan edilir və oranın tarixi, mədəni həyatı geniş təbliğat olunur. Təqdimatda yekun nitq söyləyən YAP Binəqədi rayon Təşkilatının sədri Ramiz Göyüşov "Qarabağ həftəsi" layihəsi haqqında fikirlərini bölüşüb. Təqdimata iştirakçıların canlı səsləndirdikləri "Çırpınırdı Qara dəniz" mahnısının ifası ilə yekun vurulub.




Mayın 24-də 126, 244 və 283 saylı orta məktəblərin iştirakı ilə "Qarabağ həftəsi" layihəsi çərçivəsində Şuşa rayonu haqqında geniş təqdimat keçirilib. Tədbirdə 126, 244 və 283 saylı orta məktəblərin istedadlı şagirdlərinin təqdimatında Şuşa rayonu haqqında ətraflı məlumat verilib. Şuşanın tarixi, coğrafi mövqeyi, musiqisi, tarixi və digər ziyalı şəxsiyyətləri, milli mətbəxi haqqında rəngarəng videçarxlar nümayiş olunub. Zəngin ssenari əsasında hazırlanmış təqdimatda Şuşa rayonuna həsr olunmuş şeirlər, "Şuşanın dağları", "Qarabağ şikəstəsi" və Qarabağa həsr olunmuş digər mahnılar və muğamlar ifa edilib. Həmçinin istedadlı şagirdlərin ifasında təqdim edilən "Sarı gəlin", "Yallı" rəqsi tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb. Təqdimatda "Vaqif" pyesi əsasında səhnəcik göstərilib. Şuşa dağlarında yetişən qeydi-adi Xarı Bülbülünün əfsanəsi barədə dolğun məlumat çatdırılıb və "Xarı Bülbül" mahnısı ifa olunub.

Təqdimatın ssenari müəllifi, 126 saylı orta məktəbin direktoru, şair, publisist Şəmsi Qoca "Qarabağ həftəsi" layihəsinin təşəbbüskarlarına bütün kollektiv adından təşəkkürünü bildirib.

Mayın 24-də İdrak Liseyində "Qarabağ həftəsi" layihəsi çərçivəsində Qubadlı rayonuna həsr olunmuş "Qubadlıya apar məni" adlı təqdimat keçirilib. Liseyd keçirilən təqdimatda dövlət himni səsləndirildikdən sonra şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Liseyin direktoru Mönsüm Alışov çıxış edərək vətənpərvərlik mövzusuna həsr olunmuş layihələrin əhəmiyyətindən danışıb. Təqdimatda Qubadlı rayonunun tarixi və etimologiyası haqqında "Tariximiz qan yaddaşımızdır" adlı slaydlar təqdim olunub. Eyni zamanda rayonun coğrafiyası, tarixi abidələri barədə ətraflı məlumat verilib.

# Uşaqların sağlamlığının qorunması ən ümdə məsələlərdəndir

Ölkəmizdə bütün sahələr kimi, səhiyyə sektoru da inkişaf yolundadır. Bu gün Azərbaycanın hər bir guşəsində yeni inşa olunmuş, müasir avadanlıqlarla tam təmin edilmiş klinika və xəstəxanalar vətəndaşlarımızın sağlam həyatına xidmət edir.

Paytaxtın Binəqədi rayonunun Biləcəri qəsəbəsində yerləşən 11 saylı uşaq poliklinikası 1993-cü ildən fəaliyyət göstərir. Tibb sahəsində böyük təcrübə və bacarığa malik olan Məlahət İbrahimova həmin ildən burada baş həkim kimi çalışır. Əvvəllər müəssisənin qeydiyyatında 16.000 nəfər uşaq olub, hazırda isə bu tibb ocağı 31.996 nəfər 18 yaşa qədər yeniyetmə və gəncə xidmət göstərir. 174 nəfərlik heyəti olan poliklinikada 54 həkim uşaqların sağlamlığının keşiyində dayanır. Müəssisənin Binəqədi, Biləcəri və Sulutəpə şöbələri də əhalinin xidmətindədir.

Məlahət xanım bizimlə söhbətində bildirdi ki, poliklinikada müasir tipli avadanlıqlarla təchiz olunmuş müayinə aparatları var: "Ölkə əhalisinin sağlamlığının keşiyində durmaq, onlara vaxtında tibbi yardım göstərmək səhiyyə işçilərinin ən ümdə vəzifəsidir. Uşaqların sağlamlığı isə bu sahədə əsas faktordur. Sovetlər dövründə – ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illərdə Azərbaycanda səhiyyə sahəsi böyük inkişaf yolu keçmişdir. Ümummilli liderimiz insan sağlamlığını cəmiyyətin sərvəti adlandırmışdır. Bu gün Azərbaycan səhiyyəsinə və tibb işçilərinə olan diqqət və qayğı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son illər səhiyyə sisteminin inkişafında böyük irəliləyişlərə nail olunmuşdur. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə əhalinin, xüsusilə də uşaqların sağlamlığının qorunması, bir sıra xəstəliklərin qarşısının alınması istiqamətində böyük işlər görülmüşdür. Səhiyyə sahəsinə ayrılan büdcə ilbəil artmaqdadır. Azərbaycan Prezidentinin göstəriş və təşəbbüsü ilə yeni-yeni tibb müəssisələrinin yaradılması, mövcud olanların təmir-bərpası bu gün səhiyyə işçilərinə şərəfli peşələrini layiqincə yerinə yetirmək üçün geniş imkanlar yaratmışdır. Bu peşə həm də böyük məsuliyyət tələb edir. Dövlətin daim diqqət göstərdiyi və himayə etdiyi uşaqların, yeniyetmə və gənclərin sağlamlığı, milli genefondumuzun qorunması həm də öz peşəsini layiqincə yerinə yetirən həkimlərdən asılıdır".



Ana və uşaqların sağlamlığının mühafizəsi sahəsində mövcud problemlərin kompleks şəkildə həlli məqsədilə poliklinikada həyata keçirilən işlərdən danışan baş həkim ölkəmizdə uşaq ölümünün ilbəil azaldığını da diqqətə çatdırdı: "Azərbaycan dövlətinin ümumi yüksəlişi, ölkə başçısının həyata keçirdiyi sosialyönümlü siyasət səhiyyəmizin bugünki səviyyəsinin təməl daşıdır. Ölkəmizdə insanların sağlamlığına verilən önəm, bu sahəyə dövlətin və şəxsən ölkə başçısının diqqət və qayğısı səhiyyəmizin bugünkü yüksək inkişafında bir güzgü rolunu oynayır. Bütün bunlar tibb sahəsində çalışanları daha da ruhlandırır, məsuliyyətimizi daha da artırır".

Məlahət xanımın sözlərinə görə, müəssisəyə müraciət edənlər arasında gənc analar çoxluq təşkil edir. Onların övladlarının düzgün müalicəsi üçün kollektiv əllərindən gələni əsirgəmir. "Uşaqların icbari dispanserizasiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanına uyğun olaraq, hazırda poliklinika ciddi iş rejimində fəaliyyət göstərir. Bununla bağlı valideynlərlə söhbətlər aparlır, maarifləndirmə və məlumatlandırma tədbirləri həyata keçirilir, dispanserizasiyadan keçməyənlərin sonrakı aqibəti barədə izahlar verilir.

Söhbət zamanı o da məlum oldu ki, gün ərzində poliklinikaya 200 nəfərə qədər pasiyent müraciət edir. Müraciətlər əsasən peyvənd edilməsi və ümumi müayinə ilə bağlı olur. Məlahət xanımın sözlərinə görə, hazırda uşaqlar arasında onkoloji xəstəliklərin artması və görmə qabiliyyətinin zəifləməsi müşahidə edilir: "Son dövrlər uşaqlarda görmə qabiliyyətinin pisləşməsi kəskin şəkildə özünü büruzə verir. Uşaqların icbari dispanserizasiyası nəticəsində adıçəkilən xəstəliklər erkən aşkarlanır və müalicə olunur. Onu da deyim ki, dispanserizasiyası təkcə poliklinikada deyil, məktəblərdə, uşaq bağçalarında da aparılır. Uzun müddət kompüter arxasında oturmaq, gündəlik oftalmoloji gigiyena qaydalarına riayət olunmaması görmə qabiliyyətinin zəifləməsinə gətirib çıxarır. Buna təsir edən amillər insanın özündən asılı olan və olmayan səbəblərdən yarana bilir. Belə ki, irsilik amili, əlverişsiz ekoloji şərait insanın özündən asılı deyil. Müasir elektron cihazların istifadəsi zamanı qaydalara riayət olunmaması da görmə qabiliyyətinə birbaşa mənfi təsir edir. Həmin cihazlarla gözlər arasında düzgün məsafənin seçilməməsi, görmə bucağının saxlanmaması, onların silkələnməsi zamanı istifadə olunmaması, ekranın kifayət qədər işıqlandırılmaması vacib amillərdəndir. Hər bir valideyn övladını altı ayda bir dəfə oftalmoloji müayinədən keçirməlidir. Hazırda Milli Oftalmologiya Mərkəzində yüksək ixtisaslı mütəxəssislərlə yanaşı, göz patologiyalarını müalicə etmək üçün mümkün olan ən yaxşı avadanlıqlar var. Yeri gəlmişkən deyim ki, biz Binəqədi Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə təhsil müəssisələrində mütəmadi müayinələr keçiririk. Bu cür aksiyaları gələcəkdə də davam etdirmək niyyətindəyik. Poliklinikanın xidməti ərazisində olan məktəblər və uşaq bağçaları ilə sıx işləyirik. Keçirilən müayinələr nəticəsində aşkar olunan xəstələr aidiyyəti sahələrə yönəldilir. Yeri gəlmişkən qeyd edim ki, dayaq-hərəkət sistemi xəstəliklərindən əziyyət çəkənlərin də sayı ilbəil artır. İstənilən yaşda yarana bilən bu problem insanlar tərəfindən xəstəlik kimi qəbul olunmasa da, əslində ciddi bir haldır. Onurğa xəstəliklərinin yaranma səbəblərindən biri də uşaqların düzgün oturmaması ilə bağlıdır. Evdə valideynlər, məktəbdə isə müəllimlər uşaqlara düzgün oturuş qaydalarını başa salmalıdırlar. Uzanaraq dərs oxumaq, həddindən artıq eyni formada hərəkətsiz qalmaq da onurğa əyriliyi xəstəliyinə səbəb olur. Bizim həkimlər mütəmadi olaraq məktəb və bağçalarda olur, onurğa əyriliyi barədə məlumat verir, onun fəsadlarından danışırlar".

Söhbətimizin sonunda 1 İyun – Uşaqları Beynəlxalq Müdafiə Günü ilə bağlı 100 nəfər uşağın sünnət olunacağını deyən Məlahət xanım bu cür ənənənin gələcəkdə də davam etdiriləcəyini bildirdi.

# Multikulturalizm – Azərbaycan dövlətinin siyasi siması



***Məcid İSKƏNDƏROV***,
*Qafqaz Universitetinin III kurs tələbəsi*

Multikulturalizm – dünya xalqlarının, etnik azlıqların, bütövlükdə isə bəşəriyyətin qarşılıqlı hörmət əsasında ünsiyyət formasıdır. Məsələn, elm adamları üçün belə ünsiyyət elmi nailiyyətləri bölüşmək, inkişaf etdirmək məqsədilə təşkil olunan beynəlxalq forumlar, konfranslar, simpoziumlar; siyasətdə sülhə xidmət edən dövlətlərarası görüşlər və bu tədbirlər zamanı siyasətçilərin öz davranış və çıxışlarına xüsusi ehtiyatla yanaşmasını tələb edən münasibət formasıdır. Dini multikulturalizm isə müasir dövrdə xüsusən aktualdır. Bu baxımdan, müxtəlif dini qurumların bir-birinə qarşı daha tolerant, daha dözümlü davranaraq ümumi mənafelər baxımından multikultural prinsiplərə əməl etmələri Yer kürəsində daha rahat həyatı və sülhü təmin edərdi. Planetimizin sadə sakinləri üçün multikulturalizm bütün xalqların dinc yanaşı yaşamaq mədəniyyətinin elə bir dəyəridir ki, müxtəlif qlobal problemləri onun köməkliyi ilə həll etmək və xoşbəxt gələcəyə ümid etmək olar. Bu, bəşəriyyətə hörmətdir.

Minlərlə günahsız insanın, uşaqların öldürüldüyü, dəhşətli xəstəliklərin, epidemiyaların yayıldığı bir dövrdə elmi, siyasi və dini xadimlər bütün qüvvələrini toplayaraq bu bəlaları dəf etməkdə bəşəriyyətə kömək əllərini uzatmalıdırlar.

Multikulturalizmin elmi tərəfindən də danışmaq yerinə düşərdi. Bu, hər bir ölkədə irqi və dini fərqlər qoymadan bütün vətəndaşların hüquq bərabərliyidir. Belə cəmiyyətdə insanlar dilini, dinini, etnik və milli mədəniyyətini, adət-ənənələrini rahat yaşadıb inkişaf etdirə bilir, burada milli məktəblər şəklində təhsil müəssisələri açılır, müxtəlif dillərdə qəzet və jurnallar dərc olunur. Məhz belə ölkələrdə multikulturalizm təkcə siyasi elita tərəfindən qorunmur, həm də heç bir vəzifə mövqeyi olmayan dinc əhalinin hörmətlə yanaşdığı bir dəyərə çevrilir. Elə bu baxımdan, məsələyə dil faktorunun təsiri böyükdür. Dil – millətlər, xalqlar arasında dialoqun əsas vasitəsidir. Dil hansısa maddi sərvət, pul, daş-qaş olmasa da, o, elə bir xəzinədir ki, bəşəriyyətin bütün nailiyyətləri, tarixi və elmi dəyərləri məhz bu amildən bəhrələnir. Dil sülhü və müharibəni elan edir, elmi və mədəniyyəti yayır. O elə bir qədim və müasir silahdır ki, onun vasitəsilə həm yaralamaq, həm də sağaltmaq olar. Dil, eyni zamanda, bütün bəşəri dəyərlərin inkişafına xidmət edir. Uzun illər sovet imperiyasında yaşayan xalqlar rus dili vasitəsilə bir-birinin mədəniyyətini, tarixini və ənənələrini bölüşüb, inkişaf etdirmişlər. Ümumiyyətlə, multikulturalizm anlayışı öz bünövrəsini bəşəriyyətin böyük müharibələrindən, demoqrafik yerdəyişmələrdən və ticarət münasibətlərindən götürmüşdür. Bu münasibətlərdən sonra xalqlar nəinki bioloji, maddi cəhətdən dəyişir, həm də dil, milli-mənəvi və mədəni cəhətdən də bir-birinə təsir edir və inkişaf edirlər.

Son illərdə milyonlarla insanın həyatını cəhənnəmə çevirmiş Yaxın Şərqdə gedən müharibədən Avropaya qaçan insanlar tanımadıqları Yeni Dünyaya, başqa ölkələrə sülh və əmin-amanlıq üçün üz tuturlar. Əlbəttə, çox yaxşı olardı ki, əli silahsız, köməksiz qaçqınlarla ümumi dil tapılsın. Özlərini demokrat adlandıran ölkələr və siyasi xadimlər bu axının qarşısını sülhlə, dialoqla ala bilsinlər.

Fikrimcə, bu ölkələrdə insanlarla düzgün işləmək üçün ABŞ-da nəş olunan "THE HİLL" qəzetində beynəlxalq münasibətlər üzrə ekspert Arye Qutun "Azərbaycan – tolerantlıq və multikulturalizm ölkəsidir" adlı məqaləsi yaxşı nümunə ola bilər. Müəllifin də göstərdiyi kimi, əminliklə deyə bilərik ki, multikulturalizm Azərbaycanda dövlətin siyasi simasına çevrilmişdir.

Mənim Vətənim qədim dövrlərdən bəri çoxlu etnik azlıqların sülh və dostluqda yaşadığı bir məkandır. Bunu heç kim dana bilməz. Qonşu ölkələrdən bizə köç etmiş insanlar torpaqlarımızda həmişə isti qarşılanmış və yerləşdirilmişdir. Onların maddi və mənəvi sərvətləri hörmətlə qorunmuşdur. Əgər bəziləri bunu unutmuş və hətta bizim olanlara da əl uzatmağa qalxdılarsa, digər millətlərdən olan mərd insanlar ordumuza qoşularaq torpaqlarımızı, namusumuzu, şərəfimizi bizimlə birlikdə qəhrəmancasına qorudular və bu gün onlar Şəhidlər xiyabanında uyuyan əbədi ləyaqət simvollarıdır.

Bax, budur multikulturalizm! Bu məntiqlə götürsək, multikulturalizm – sədaqət, namus və əsl dostluqdur!

Bu baxımdan, multikulturalizmin təbliği və inkişafı üçün digər ölkələrdə də qlobal beynəlxalq problemləri aradan götürmək, münasibətləri yaxşı məna-da inkişaf etdirmək üçün paytaxtımızda keçirilmiş "Bakı Beynəlxalq Humanitar Forumu", Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu", İslam Əməkdaşlıq Təşkilatının tədbirləri, Avroviziya və Avropa Oyunları və nəhayət, bu günlərdə BMT-nin Bakida keçirilən "Sivilizasiyalararası dialoq" kimi beynəlxalq tədbirləri təkcə bizim ölkədə deyil, digər ölkələrdə də davam etdirmək , bu mövzunu bütün dünyaya aşılamaq məqsədəuyğun olardı.



## MKTB-də səyyar toplantı keçirilib



Binəqədi Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə gücləndirilmiş iş rejiminə keçilməsi ilə əlaqədar rayon Mənzil Kommunal Təsərrüfat Birliyinin (MKTB) xidməti ərazilərində səyyar toplantılar davam edir. Bu barədə qəzetimizə MKTB-dən daxil məlumatda qeyd edilib ki, ötən həftə baş tutan səyyar toplantıda birliyin rəisinin müvafiq təlimat və göstərişi əsasında təmizlik işləri ilə məşğul olan əməkdaşların fəaliyyəti, onların xidmət etdikləri ərazidə profilaktik-təmizlik işlərinin vəziyyəti təhlil edilib. çatışmazlıqlar müzakirə olunub, yeni qaydaların icrasının təminatı ətraflı araşdırılıb.

MKTB rəisinin müavinlərinin qatıldığı Əmək Məcəlləsinin tələblərinin icra vəziyyəti, "Texniki təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri, əməyin mühafizəsi və texniki təhlükəsizlik təlimatı üzrə əməkdaşların vəzifələri, o cümlədən təmizlik işlərinin operativliyinin tam təmin olunması məsələləri müzakirə edilib və aidiyyəti üzrə tapşırıqlar verilib. Toplantıda, həmçinin, yaxın aylarda şəhərimizdə baş tutacaq daha bir mötəbər idman yarışının – "Formula-1"in keçiriləcəyi tədbir iştirakçılarının diqqətinə çatdırılıb və ərazilərin təmiz saxlanılması istiqamətində işlərin bir daha da gücləndirilməsinin zəruriliyi vurğulanıb.

## Xocəsən qəsəbəsində yeni yerüstü keçidin tikintisinə başlanılır





Binəqədi rayonunun Xocəsən qəsəbəsi ərazisində, Şamaxı yolu istiqamətində yeni yerüstü keçidin tikintisinə başlanılır.

Bu barədə qəzetimizə Binəqədi Rayon İcra Hakimiyyətindən (RİH) bildirilib. Məlumatda qeyd olunub ki, sakinlərin çoxsaylı müraciəti nəzərə alınıb. Məqsəd həmin ərazidə nəqliyyat vasitələrinin hərəkətinin intensivliyini, vətəndaşların avtomobil yolunu rahat və təhlükəsiz şəkildə keçməsini təmin etməkdir.

RİH-dən bildirilib ki, prezident İlham Əliyevin göstərişinə əsasən, Bakı şəhərində nəqliyyatın hərəkətinin tənzimlənməsi və yol infrastrukturunun təkmilləşdirilməsi layihələri üzrə işlər uğurla icra olunur. Yeni yol qovşaqlarının, körpülərin, yeraltı və yerüstü keçidlərin inşası Bakıda tıxac probleminin aradan qaldırmasına və əhalinin rahatlığının təmin edilməsinə yönəldilib. Dövlət başçısının tapşırıqlarına əsasən, paytaxtın yol-nəqliyyat infrastrukturunun daha da müasir səviyyəyə çatdırılması istiqamətində məqsədyönlü və mühüm tədbirlər davam etdirilir.

## Yazın gəlişi təmizlik işlərini intensivləşdirib

"Evimizi təmiz saxlayaq, Binəqədi evimizdir" layihəsi çərçivəsində aparılan profilaktik-təmizlik işləri rayonun bütün ərazilərində uğurla davam etdirilir. Binəqədi rayon Mənzil Kommunal Təsərrüfat Birliyinin baş mühəndisi Vəli Əliyevin qəzetimizə verdiyi məlumata görə, hazırda icra hakimiyyətinin təşəbbüsü ilə rayonun müxtəlif ərazilərində profilaktik təmizlik işləri aparılır. Layihə çərçivəsində 92 saylı MKİS-in əməkdaşları təmizlik tədbirlərini davam etdirir: "layihənin ən önəmli tərəflərindən biri odur ki, təmizlik tədbirlərinə sakinlər də könüllü qoşulub və ərazinin abadlaşdırılmasında yaxından iştirak edirlər. Bu, əsl həmrəylik nümunəsidir. Bu proses həftə boyu rayonun digər ərazilərində də davam etdirilib. Eyni zamanda, yaşayış binalarının girişlərində də təmir işlərinə başlanılıb".

Baş mühəndis vurğulayıb ki, tədbirlər planında təmizlik və abadlıq işlərinin aparılması, ağacların budanması, ərazilərin alaq otlarından təmizlənməsi, yaşıllıqlara aqrotexniki qulluq, qabaritlərin daşınması və s. nəzərdə tutulub: "Bununla yanaşı, MKTB-nin əməkdaşları 102 saylı MKİS-in xidməti ərazisi olan Azadlıq prospekti 156,158 və 160 ünvanlarda yerləşən yaşayış binalarının



damına texniki baxış keçirib və həqiqətən həmin binaların damında təxirəsalınmaz tədbirlərin görülməsi qənaətinə gəliblər. Baxış zamanı qeyd olunan ünvanlarda binaların damında ayrı-ayrı sakinlər tərəfindən qanunsuz su çənləri quraşdırıldığı müşahidə edilib və rəhbərliyin tapşırığı əsasında onlar istismardan çıxarılıb" .

## Məktəblilər velosiped birinciliyində

Binəqədi rayonu S.S.Axundov küçəsi istiqamətində Azərbaycan Respublikası Təhsil Nazirliyinin dəstəyi, Binəqədi Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə rayon məktəbliləri arasında "Bakı-2016" ralli yarışına dəstək məqsədilə velosiped birinciliyi keçirilib. Yarışda 32 komandanın tərkibində 5 nəfər (1 nəfər qız, 4 nəfər oğlan) olmaqla ümumilikdə 160 nəfər şagird iştirak edib.

Yarışın yekun nəticəsinə görə, 115 №-li tam orta məktəbin komandası fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb. 83 №-li məktəb-



liseyin və 301 №-li məktəbin komandaları isə müvafiq olaraq 2-3-cü yerləri bölüşdürüblər. Qaliblər Təhsil Nazirliyi tərəfindən kubok və diplomlarla təltif olunublar.

## Bankların üzləşdiyi risklər və çağırışlar

Mayın 26-da Bakıda "Gələcəyə baxış: Azərbaycan bank sektorunun üzləşdiyi risklər və çağırışlar" mövzusunda "Risklərin idarə edilməsi forumu–2016" keçirilib.

Azərbaycan Mühasiblər və Risk Peşəkarları Assosiasiyasının (ARPA) Müşahidə Şurasının sədri Rüfət Mahmud çıxışında dünya iqtisadiyyatında baş verən qlobal maliyyə böhranının Azərbaycan maliyyə bazarından da yan keçmədiyini diqqətə çatdırıb. Bildirib ki, son vaxtlar ARPA tərəfindən təşkil olunan tədbirlərdə ölkədə baş verən mühüm hadisələr müzakirə olunur. ARPA bu hadisələrdən kənarda qalmır. Bugünkü tədbir mütəxəssislərin risk maarifləndirmə və idarə edilməsində son tendensiyalar haqqında öyrənmək üçün əlavə vasitədir.

"Risklərin idarə olunmasında müasir Avropa və Rusiya təcrübəsi" mövzusunda təqdimatla çıxış edən Rusiyanın Risklərin İdarə Olunması Cəmiyyətinin prezidenti Viktor Vereşagin qeyd edib ki, hər bir ölkədə mühasiblər üçün milli sertifikasiya proqramları hazırlanmalıdır. Çünki beynəlxalq sertifikasiya yerli şəraitə uyğun olmaya bilər.

"MDB ölkələri arasında valyuta depozitləri üzrə ən yüksək artım göstəricisi Azərbaycandadır. Gələcəkdə də Azərbaycanda valyuta depozitlərinin həcmi artacaq. Bu da banklarda aktiv və passivlər arasında fərqi artırır. Bununla yanaşı, depozitlərin ümumi sayının azaldığını da müşahidə edirik", – deyə "Moody's" beynəlxalq reytinq agentliyinin analitiki Mariya Malyukova vurğulayıb.

ARPA-nın ekspertlər qrupunun sədri Elman Sadıqov bildirib ki, maliyyə və real sektorlar bir-birlərini zəncirvari reaksiya şəklində inkişaf etdirə və ya böhrana sürükləyə bilər. Real sektorun inkişaf etdirilməli olan sahələrinin səmərəli maliyyələşmə yolu tapılmalıdır. Real sektorun elə bir sahəsi inkişaf etdirilməlidir ki, bu, ölkəyə valyuta axınını təmin etsin. Azərbaycan Bank Tədris Mərkəzinin direktoru Cavanşir Abdullayev diqqətə çatdırıb ki, ölkənin bank sistemində likvidlik səviyyəsinin artırılması ilə bağlı hökumətə xüsusi təkliflər zərfi təqdim edilib. Manat likvidliyinin artırılması üçün bazar xarici investisiyaya tam açılmalıdır və bu proses təşviq olunmalıdır. Bu, bankların kapitallaşmasına dəstək verəcək və əlavə likvid vəsaitlərin cəlb olunmasına səbəb olacaq. Eyni zamanda, bank sektoruna inam artacaq.

Forumda "Banklar və real sektor: Risklər və perspektivlər", "Banklarda hüquqi risklər və əminliyə nəzarətin vacibliyinin artması", "Bank sektorunda risklərin idarə edilməsi standartları", "Devalvasiya və onun real və maliyyə sektorlarına təsiri" mövzusunda məruzələr dinlənilib.

Binəqədi Rayon İcra Hakimiyyətinin
Sakinlərin Müraciət Xidməti




Sizin zənginiz bizim üçün çox əhəmiyyətlidir!

www.binegedi-ih.gov.az

Koroğlu Rəhimov 53, mənzil 32-də yaşayan Musayev Məhərrəm İbrahim oğluna verilmiş dövlət reyestrindən çıxarış itdiyi üçün ETİBARSIZ SAYILIR

## Finlandiya biznesmenləri Bakıya valeh olublar



"Nordea" Bankının prezidenti, Finlandiya Birja Maklerləri Assosiasiyasının idarə heyətinin müşaviri Henri Malvetin başçılığı ilə Finlandiya sərmayədarlarının nümayəndə heyəti "Dostluq" Azərbaycan-Finlandiya Cəmiyyətinin başçısı Təranə Nəzərovanın təşəbbüsü ilə Bakıda olub. Bu barədə cəmiyyətin başçısı Təranə Nəzərova AZƏRTAC-ın xüsusi müxbiri ilə söhbətində danışıb. O deyib: "Finlandiyanın ölkəmizdəki investisiya və sahibkarlıq mühitinə ciddi maraq göstərən iri biznesmenlərinin Azərbaycan paytaxtına səfərinin təşkili ilə şəxsən məşğul olmuşam".

Nümayəndə heyətinə "Integria Logistics Oy" şirkətinin direktoru Timo Koivumaki, Cənubi Savo Kommunalar İttifaqının başçısı Pentti Myakinen, tanınmış sərmayədarlar Mika Heykkilya, Panu Saukkonen və başqaları daxil olublar. Finlandiyalı biznesmenlər Azərbaycan Dövlət Neft Fondunda seminarda iştirak ediblər.

Görüşlərdə Azərbaycanda xarici şirkətlər üçün investisiya təklifləri müzakirə edilib.

T.Nəzərovanın sözlərinə görə, Panu Saukkonen, Timo Koivumaki, Mika Heykkilya Helsinkiyə qayıdandan sonra Azərbaycanın paytaxtı barədə təəssüratlarını bölüşüblər.

Finlandiyalı biznesmen Panu Saukkonen "Facebook" səhifəsində yazıb: "Bu gün hər hansı ölkənin və şəhərin təəccüb yaratması nadir hadisədir. Amma Bakı mehriban, məğrur və çox təmiz şəhərdir. Məncə, Nyu-Yorka getməkdənsə, bura gəlmək yaxşıdır. Monakoya oxşayan bu şəhərdə devalvasiyadan sonra restoranlar, mehmanxanalar və qalan xidmətlər avropalının adət etdiyi qiymətlərdən xeyli ucuzdur. Bakı sakinləri qarşısına çıxan adamın gözünün içinə baxmaq bacarığını itirməyən fantastik gözəl insanlardır. Restoranlar və şərablar hətta ağzının dadını bilən təcrübəli adamları da heyran qoyur. Qloballaşma bu möcüzənin sonuna çıxmamış, tez bura gəlin".

## Baxışla idarə olunan mağaza




ABŞ-ın "eBay" şirkəti ilk virtual reallıq mağazasını istifadəyə verib. Layihə Avstraliyanın "Myer" pərakəndə satış şirkəti ilə birgə həyata keçirilib.

AZƏRTAC lenta.ru saytına istinadla xəbər verir ki, virtual mağazaya virtual eynəklər vasitəsilə daxil olmağa imkan verən "eBay Virtual Reality Department Store" proqramı "Android" və "iOS" əməliyyat sistemləri ilə işləyən qurğular üçün nəzərdə tutulub. Xüsusi qurğuları olmayan alıcılar üçün "Myer" və "eBay" 20 min ödənişsiz "Google Cardboard" virtual reallıq eynəyini təqdim edir.

Həmçinin virtual alış-veriş üçün istifadəçiyə hərəkətlərini baxışla idarə etməyə imkan verən xüsusi "eBay Sight Search" texnologiyası hazırlanıb. Müəyyən əşyanı seçmək üçün ona bir neçə saniyə diqqətlə baxmaq tələb olunur.

Mütəxəssislərin sözlərinə görə, alqoritm gələcəkdə alıcılara onların əvvəlki alış-verişlərinə əsaslanaraq məhsullar təklif edəcək.

Hazırda "3D" formatında yalnız 100 ən populyar məhsula baxmaq olar. Daha 12,5 min əşya ilə "2D" formatında tanış olmaq mümkündür.

Qeyd edək ki, "eBay" internet mağazası 1995-ci ildə proqramçı Pyer Omidyar tərəfindən yaradılıb. Mağazada qeydiyyatdan keçmiş istənilən istifadəçi alış-veriş edə bilər. "eBay", həmçinin "PayPal" və "ebay Enterprise" şirkətlərinin sahibidir.